

*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 193 (5913) **19 oktyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Bu ilin sonunadək 6000, gələn il isə 7000-dən çox məcburi köçkün ailəsi mənzillə təmin olunacaq

*Prezident İlham Əliyev Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədrini qəbul edib*



Səh 2

5

**Yenilənmiş Azərbaycana yeni müxalifət lazımdır: radikal və dağıdıcı müxalifətdən qurtuluşun zamanı yetişib**



6

**MSK sədri: Azərbaycan-da bələdiyyə seçkilərinin keçirilməsi ilə bağlı heç bir maneə yoxdur**



6

**"Azərbaycanda pensiyaların məbləği 293 manat olacaq"**



# Bu ilin sonunadәk 6000, gәlәn il isә 7000-dәn çox mәcburi köçkün ailәsi mәnzillә tәmin olunacaq

*Prezident İlham Әliyev Qaçqınların vә Mәcburi Köçkünlәrin İşlәri üzrә Dövlәt Komitәsinin sәdrini qәbul edib*

***Azәrbaycan Respublikasının Prezidenti İlham Әliyev oktyabrın 18-dә Qaçqınların vә Mәcburi Köçkünlәrin İşlәri üzrә Dövlәt Komitәsinin sәdri Rövşәn Rzayevi qәbul edib.***



AZӘRTAC xәbәr verir ki, mәcburi köçkünlәrin problemlәrinin hәlli istiqamәtindә bu il dә çox böyük işlәrin nәzәrdә tutulduğunu qeyd edәn **Prezident İlham Әliyev** dedi:

- Mәcburi köçkünlәrin problemlәrinin hәlli istiqamәtindә bu il dә çox böyük işlәr nәzәrdә tutulur. Bu işlәrin bir hissәsi artıq görülüb. Bu yaxınlarda "Qobu Park-2" yaşayış kompleksinin açılışını qeyd etdik. Bu kompleksdә 1300 qaçqın ailәsi yerlәşәcәk. Kompleksin açılışında gördüm ki, әn yüksәk standartlar tәtbiq olunur. Çox gözәl, rahat evlәr, gözәl ictimai zonalar, mәktәb, uşaq bağçası, supermarket, tibb mәntәqәsi, yәni, yaşayış üçün bütün şәrait yaradılıbdır. Sevindirici hal ondan ibarәtdir ki, "Qobu-1" vә "Qobu-2" komplekslәrinin tikintisi sırf özәl sektor tәrәfindәn tәmin edildi. Hazırda tikilmәkdә olan "Qobu-3" dә özәl sektorun vәsaiti hesabına inşa edilir. Belәliklә, tәqribәn 4 minә yaxın köçkün ailәsi Qobu qәsәbәsindә әn müasir standartlara cavab verәn mәnzillәrlә tәmin edilәcәkdir.

Mәn açılış zamanı sahibkarlara da çağırış etdim, onlara bu işlәrә qoşulmağı tövsiyә etdim. Mәnim çağırışıma sahibkarlar cavab veriblәr. Hesab edirәm ki, köçkünlәrin problemlәrinin hәlli ümumxalq mәsәlәsi olmalıdır. Düzdür, әsas yükü dövlәt öz üzәrinә götürübdür. Bu günә qәdәr yüzdәn çox şәhәrciyin tikintisi dövlәt hesabına tәmin edilmişdir. Ümumiyyәtlә, köçkünlәrin problemlәrinin hәlli, müavinәtlәrin verilmәsi, evlәrin tikilmәsi üçün 7 milyard manatdan çox vәsait xәrclәnib. Bu il mәcburi köçkünlәrin müavinәtlәri 50 faiz artırıldı. Bu, bir daha onu göstәrir ki, dövlәt bu kateqoriyadan olan insanlara daim öz yardımını edir.

İlin sonuna qәdәr yeni şәhәrciklәrin açılışı nәzәrdә tutulur. İlin әvvәlindә nәzәrdә tutduğumuz bütün işlәr ilin sonuna qәdәr öz hәllini tapmalıdır. Siz artıq indidәn gәlәn ilin proqramı üzәrindә işlәmәlisiniz. Gәlәn il harada, nә qәdәr köçkün ailәsini biz yeni evlәrә, mәnzillәrә tәmin edә bilәrik.

İndi isә görülәn işlәr haqqında mәruzә edin vә gәlәn il hansı işlәrin görülmәsi nәzәrdә tutulmuşdur?

**Rövşәn Rzayev:** Çox sağ olun, möhtәrәm cәnab Prezident. İlk növbәdә, "Qobu Park-2"nin açılışında iştirak etdiyinizә görә tәşәkkür edirәm. Bu park oktyabrın 8-dә açıldı. Artıq mәruzә edә bilәrәm ki, Nәsimi rayonunda yerlәşәn yataqxanaların birindә yaşayan 120 ailә yeni mәnzillәrdә mәskunlaşıb. Proses davam etdirilir. Dünәn ikinci püşkatma oldu. Nәrimanov rayonunda vә Sizә әvvәlcәdәn tәqdim olunmuş әrazilәrdәki yataqxanalarda mәcburi köçkünlәr siyahıya uyğun köçürülәcәklәr. Bunun üçün Sizin tәrәfinizdәn bütün şәrait yaradılıbdır. Komitәnin bütün әmәkdaşları bu istiqamәtdә mәşğuldurlar vә işi davam etdirirlәr.

Tәbii ki, bu ilin sonuna qәdәr Sizin tapşırıqlarınıza әsasәn bir neçә rayonda qәsәbәlәrin tikintisi başa çatdırılacaq. İcazә verin, bir-bir sadalayım - Şirvan rayonunda 685 mәnzilli qәsәbәmiz artıq hazırdır, tamamlama işlәri yekunlaşır. Belәliklә, Şirvan şәhәrindә mәskunlaşan bütün mәcburi köçkünlәr mәnzillәrlә tәmin olunacaqlar. Hәtta әtraf rayonlardan bir neçә ailәni dә hәmin qәsәbәyә yerlәşdirә bilәcәyik. Göyçay rayonunda 80 mәnzildәn ibarәt binada artıq tamamlama işlәri bitir. Orada da qәzalı vәziyyәtdә olan bir binada yaşayan 80 mәcburi köçkün ailәsinin hamısı yeni mәnzillәrә köçürülәcәk. Sizin tapşırığınıza әsasәn Kürdәmirdә salınan, 565 mәnzildәn ibarәt böyük bir qәsәbәmizdә dә tamamlama işlәri aparılır. Yәqin ki, oktyabr ayının axırları, yaxud noyabrın ortalarında onu da tәhvil verә bilәcәyik. Belәliklә, Kürdәmir rayonunda mәskunlaşan bütün mәcburi köçkünlәrin hamısı bu qәsәbәdә mәnzillә tәmin olunacaq. Oraya hәtta әtraf rayonlardan bir neçә ailәni dә gәtirә bilәcәyik.

Göygöl rayonunda ümumilikdә 130 mәnzildәn ibarәt üç binanın inşası davam edir. Ağcabәdi rayonunda әsasәn laçınlıların mәskunlaşdığı Taxtakörpü qәsәbәsindә 645 fәrdi ev tikilir. Biz 645 ailәni ilin sonuna qәdәr o evlәrә köçürәcәyik. Ucar rayonunda 250 ailәlik bir qәsәbәmiz dә ilin sonuna qәdәr tamamlanacaq. Belәliklә, Sizin tapşırıqlarınız әsasında Komitә tәrәfindәn inşa edilәn mәnzillәrin sayı 3700-ә çatacaq.

Özәl sektorun töhfәlәri çox önәmlidir. Siz qeyd etdiyiniz kimi, özәl sektor tәrәfindәn tikilәn 1300 ailәlik "Qobu Park-2" artıq açılıbdır. Özәl sektorun vәsaiti hesabına tikilәn 540 mәnzillik daha bir qәsәbәmiz var. İlin sonunadәk biz o mәnzillәri dә mәcburi köçkünlәrә tәqdim edәcәyik. Belәliklә, Siz dediyiniz rәqәmlәr ilin sonuna qәdәr tamamilә hәllini tapacaq.

Möhtәrәm cәnab Prezident, icazә verin, mәn Sizin tapşırığınızla gәlәn il hansı rayonlarda hansı qәsәbәlәri tikәcәyimizlә bağlı Komitә tәrәfindәn hazırlanan sәnәdlәri diqqәtinizә tәqdim edim.

**Prezident İlham Әliyev:** Ondan әvvәl mәn soruşmaq istәyirәm. Sumqayıt şәhәrindә dә mәnim tapşırığımla yeni evlәrin tikilmәsi nәzәrdә tutulur. Mәnim göstәrişimlә artıq Sumqayıtda şәhәrcik salınıbdır. Bu istiqamәtdә hansı işlәr görülür?

**Rövşәn Rzayev:** Möhtәrәm cәnab Prezident, ötәn il Sumqayıt şәhәrindә Sizin iştirakınızla iki qәsәbәnin açılışını etmişik. Sumqayıtdakı 1001 ailәlik qәsәbәdә mәskunlaşma tamamilә başa çatıb. Sumqayıtın 12-ci mikrorayonunun әrazisindә 1005 ailәlik şәhәrcik Sizin iştirakınızla istifadәyә verilib vә orada da köçkünlәr yaşayırlar. Sizin tapşırıqlarınıza uyğun olaraq, Abşeron rayonunun "Stansiya Sumqayıt" deyilәn әrazisindә 1250 ailәlik qәsәbәnin tikintisi başlayıb, işlәr davam etdirilir. Bu, Sizin investisiya xәrclәrindәn ayırdığınız vәsait hesabına inşa edilir. Düşünürәm ki, biz o qәsәbәni dә 10 ay әrzindә tәhvil verә bilәcәyik.

Eyni zamanda, Sumqayıt şәhәrindә Dövlәt Komitәsinә 20 hektara yaxın yeni әrazi dә ayrılıbdır. O istiqamәtdә dә fәaliyyәt göstәrilir. Gәlәn illәrdә orada da tikintiyә başlamaq nәzәrdә tutulub.

**Prezident İlham Әliyev:** İndi Bakı şәhәrindә yataqxanalar boşaldılır. Bu yataqxanaların bir çoxu qәzalı vәziyyәtdәdir. Onların taleyi necә olacaq, sökülәcәkmi, tәmir olunacaqmı? Siz bu mәsәlә ilә mәşğul olmusunuz, yoxsa yox?

**Rövşәn Rzayev:** Bәli. Biz çalışırıq ki, bütün yataqxanalardan mәcburi köçkünlәri tamamilә köçürәk. Biz yataqxanaları rayon icra hakimiyyәtlәrinә vә Әmlak Komitәsinә tәhvil veririk.

**Prezident İlham Әliyev:** Onların vәziyyәtinә dә baxmaq lazımdır. Qәzalı vәziyyәtdә olan yataqxanalar sökülmәlidir vә onların yerindә yeni binalar tikilә bilәr.

**Rövşәn Rzayev:** Möhtәrәm cәnab Prezident, deyә bilәrәm ki, bütün yataqxanalar hәqiqәtәn dә qәzalı vәziyyәtdәdir, bu, onları bәrpa etmәyә imkan vermәyәcәk. Yәqin ki, sökülüb yerindә yeni binalar tikilәcәk.

**Prezident İlham Әliyev:** Gәlәn ilin proqramı haqqında mәruzә edin.

**Rövşәn Rzayev:** Gәlәn ilin proqramını biz üç variantda işlәmişik. İcazәnizlә, mәn Sizә bu variantları bir-bir mәruzә edim. Demәli, biz gәlәn il Abşeron rayonunda әlavә olaraq 1890 ailәlik, Goranboy rayonunda isә 552 ailәlik qәsәbәlәr sala bilәrik. Bunlar üç variantdır, Sizin diqqәtinizә çatdırırıq, tapşırıqlarınızı gözlәyәcәyik. Gәncә şәhәrindә 1512 ailәlik qәsәbә sala bilәrik. Bunların hamısının vәsaiti Sizin tәrәfinizdәn ayrılıbdır. Qaradağ rayonunun "Ümid" qәsәbәsindә dә 500 ailәlik şәhәrcik sala bilәrik. Şәmkir rayonunun әrazisindә 375 mәcburi köçkün ailәsi üçün yeni qәsәbә tikә bilәrik. Bu, bizim tәqdim edә bilәcәyimiz ikinci variantdır. Üçüncü variantımız - mәcburi köçkünlәr üçün Binәqәdi rayonunda ayrılmış torpaqlarda 800 ailәlik, Gәncә şәhәrindә 1512 ailәlik vә Samux rayonunun әrazisindә 200 ailәlik qәsәbәlәr sala bilәrik.

**Prezident İlham Әliyev:** Әgәr biz bunu hәll etsәk, ümumiyyәtlә, nә qәdәr köçkün ailәsi yerlәşdirilәcәk?

**Rövşәn Rzayev:** Bununla bağlı biz üç variantda sәnәd hazırlamışıq, icazәnizlә, diqqәtinizә tәqdim edim. Birinci variantda toplam 6989 ailәnin, ikinci variantda 6934 ailәnin, üçüncü variantda isә 7059 ailәnin yerlәşdirilmәsi nәzәrdә tutulub.

**Prezident İlham Әliyev:** Mәncә biz üçüncü variant üzәrindә dayanmalıyıq. Gәlәn il biz köçkünlәri mümkün qәdәr çox yerlәşdirmәliyik. Siz bu proqrama yenidәn baxın, xüsusilә Bakı vә Sumqayıt şәhәrlәrini nәzәrә alın. Çünki әn çox köçkünlәrin mәskunlaşdığı şәhәrlәr Bakı vә Sumqayıtdır. İndi biz bölgәlәrdә vәziyyәti böyük dәrәcәdә yaxşılaşdıra bilmişik. 2007-ci ildә bütün çadır şәhәrciklәri lәğv edildi vә Azәrbaycanın rayonlarında 100-dәn çox şәhәrcik salınmışdır. Ona görә bu proqramı mәn bütövlükdә tәsdiqlәyirәm. Ancaq buna әlavәlәr edilmәlidir, daha böyük hәcmdә evlәr tikilmәlidir. O ki qaldı, buna lazım olan vәsaitә, biz vәsait taparıq. Çünki bu, bizim üçün әn prioritet mәsәlәdir.

# “Azərbaycan bu regionda Latviyanın çox yaxın strateji tərəfdaşıdır”

*Prezident İlham Əliyev Latviyanın sabiq Prezidenti Raymonds Veyonislə görüşüb*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Latviya Respublikasının sabiq Prezidenti Raymonds Veyonislə görüşüb. AZƏRTAC xəbər verir ki, qonağı salamlayan Prezident İlham Əliyev dedi:

- Sizi görməyimə şadam. Xoş gəlmisiniz.

Raymonds Veyonis: Yenidən Bakıda olmaq xoşdur.

Prezident İlham Əliyev: Mən öyrəndim ki, siz ölkəmizdə səfərdəsiniz. Sizi görməyimə çox şadam.

Raymonds Veyonis: Dünən gəlmişəm və iki mühazirə oxumuşam.

Prezident İlham Əliyev: Bəli, bilirəm, ADA-da.

Raymonds Veyonis: Təkcə ADA-da deyil, həm də Qərbi Kaspi Universitetində.

Prezident İlham Əliyev: Çox yaxşı.

Raymonds Veyonis: Mən Azərbaycan və Latviya tarixi, mədəni əməkdaşlıqla bağlı fikirlərimi bildirdim.

Prezident İlham Əliyev: Mən bizim birgə işimizi xatırlayıram. Sizin Azərbaycana rəsmi səfərinizi, mənim Latviyaya rəsmi səfərimi xatırlayıram. Düşünürəm ki, birgə fəaliyyətimiz ərzində biz münasibətlərimizi irəli aparmağa nail olmuşuq.

Raymonds Veyonis: Çox iş görmüşük.

Prezident İlham Əliyev: Biz siyasi, eləcə də iqtisadi əlaqələr baxımından çox iş görmüşük. Mən, həmçinin şadam ki, biz razılaşdırdığımız bütün işləri həyata keçirmişik. Xatırlayıram ki, ölkənizə son səfərim zamanı biz Azərbaycan Ticarət Evinin açılması ilə bağlı sizinlə razılığa gəldik.

Raymonds Veyonis: Bəli, Ticarət Evi.

Prezident İlham Əliyev: Bir müddət sonra o açıldı. Bu, sizin regionda ilk Azərbaycan Ticarət Evidir. Hazırda bizim Polşada, Çində, Rusiyada, Ukraynada, Birləşmiş Ərəb Əmirliklərində, bəzi başqa ölkələrdə ticarət evlərimiz var. Mən şadam ki, sizin regionunuzda bu, Latviyadadır, çünki bizim həqiqətən də sıx əlaqələrimiz var. Bildiyiniz kimi, Latviyanın sabiq Prezidenti xanım Vike Freyberqa da Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri kimi çox fəaldır. Beləliklə, əlaqələrimizin yaxşı tarixçəsi var. Əminəm ki, qarşıdakı illərdə ölkələrimiz sıx əməkdaşlığı davam etdirəcək.

Raymonds Veyonis: Əlaqələr həqiqətən də çox yaxşıdır. Bu gün tələbələrə dediyim kimi, biz həqiqətən də müxtəlif səviyyələrdə hər zaman inkişaf etdirilməsi mümkün olan elə tərəfdaşlığa ümid bəsləyirik və düşünürəm ki, hər iki tərəf bu tərəfdaşlıqdan zövq alacaq. Bizim ölkəmiz üçün Azərbaycan bu regionda çox yaxın strateji tərəfdaş olub, tərəfdaşdır və tərəfdaş olacaq.

# Heydər Əliyev Fondu ilə UNİSEF arasında Anlaşma Memorandumu imzalanıb






***Oktyabrın 18-də Heydər Əliyev Fondu ilə BMT-nın Uşaq Fondu (UNİSEF) arasında Anlaşma Memorandumu imzalanıb. AZƏRTAC xəbər verir ki, imzalanma mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və UNİSEF-in Azərbaycandakı nümayəndəsi Edvard Karvardin iştirak ediblər.***

Memorandum 2020-ci ilin sonunadək inklüzivlik və erkən uşaqlıq dövrünün inkişafı sahəsində müxtəlif layihələrin həyata keçirilməsini nəzərdə tutur. Əməkdaşlıq çərçivəsində bu sahədə valideynlərin təhsil və təcrübələrini dəstəkləyən proqramların reallaşdırılması, ictimai maarifləndirmənin artırılması planlaşdırılır.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Fondun təhsil, səhiyyə və sosial sahələrdə həyata keçirdiyi layihələr barədə danışaraq, fiziki imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası, uşaqların sağlamlığı və təhsili sahəsində Fondla UNİSEF arasında mövcud əməkdaşlıq barədə məlumat verib. Qeyd olunub ki, imzalanan Memorandum bu əməkdaşlığın genişləndirilməsinə yeni imkanlar yaradacaq.

Memorandum çərçivəsində Heydər Əliyev Fondu, “Regional İnkişaf” İctimai Birliyi və UNİSEF-in birgə dəstəyi ilə uşaqların məktəbəqədər dövrdə sağlamlığı, müxtəlif bacarıqlarının inkişafı üzrə layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

İmzalanma mərasimindən sonra qonaqlar Mərkəzdə “Live Life” (“Canlı həyat”) sərgisi ilə tanış oldular. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə təşkil olunan sərgi ətraf mühit problemlərinə, təbiətin qorunmasına diqqət çəkmək və incəsənətin bu sahədə rolu barədə ictimaiyyəti maarifləndirmək məqsədi daşıyır. Ekspozisiya London, Paris, Berlin, Moskva və Tbilisidə nümayişdən sonra Bakıya gətirilib.

# Türkdilli ölkələr arasında əməkdaşlıq daha da genişlənir

*Prezident İlham Əliyev: "Azərbaycan təşkilata sədrliyi dövründə ölkələrimiz arasında həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə əməkdaşlığın daha da dərinləşməsi istiqamətində səylərini davam etdirəcək"*




***Paytaxtımız daha bir əhəmiyyətli tədbirə ev sahibliyi etdi. Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü keçirildi. Bu il təşkilatın yaradılmasından 10 il ötür və Naxçıvan Sazişinin onuncu ildönümünə təsadüf edən bu Zirvə Görüşü tarixi əhəmiyyətə malikdir. Naxçıvan Sazişinə əsasən, müəyyən edilmiş əsas fəaliyyət məqsədləri və vəzifələri, tərəflər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi, regionda və dünyada sülhün bərqərar edilməsi, xarici siyasət məsələlərinə ortaq yanaşmanın təşviq edilməsi, beynəlxalq terrorizm, ortaq maraq kəsb edən bütün sahələrdə regional və ikitərəfli əməkdaşlığın gücləndirilməsi və s. məsələlərə önəm verilir.***

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşünü açan Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı zamanı vurğuladığı kimi, "Naxçıvanda qəbul etdiyimiz qərarlarla və birgə işimizlə biz türk dünyasının birliyini daha da gücləndirdik və qardaşlığımızı davam etdiririk. Bu mənada, Türk Şurasının yaradılmasına dair qərarın, məhz Naxçıvanda keçirilmiş Zirvə Görüşündə qəbul edilməsi türk dünyası üçün böyük rəmzi əhəmiyyətə də malikdir". Təbii ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəaliyyətinin əsas məqsədi türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığa yardım etməkdir. Türk Şurasının birinci Zirvə Görüşü "İqtisadi əməkdaşlıq" mövzusu adı altında 20-21 oktyabr 2011-ci il tarixlərində Almatı şəhərində baş tutmuşdur. Bu günə qədər keçirilən tədbirlər "Təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlıq", "Turizm sahəsində əməkdaşlıq" "Media və informasiya sahəsində əməkdaşlıq" və s. mövzular altında keçirilmişdir. Bundan başqa, üzv dövlətlər arasında ticarət-iqtisadi münasibətləri inkişaf etdirmək məqsədilə nəqliyyat və gömrük sahəsində əməkdaşlığa xüsusi əhəmiyyət verilmişdir. Xəzər dənizi və Qara dəniz limanları arasında əlaqələrin inkişafı və Xəzər dəniz keçidinin nizamlanması üzv dövlətlərin nəqliyyat və gömrük sahəsi üzrə görüşlərin gündəliyində xüsusi yer tutmuş və Samsun, Bakı və Aktau limanları arasında qardaş limanlar əlaqələrinin yaradılması istiqamətdə atılmış addımdır. Türk Şurası çərçivəsində Azərbaycanın təşəbbüsü ilə 2013-cü il tarixində Bakıda ilk dəfə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin I Forumu keçirilmişdir. Azərbaycanın təşkilat çərçivəsində siyasi və təhlükəsizlik məsələləri sahəsində əməkdaşlığı uğurla davam etməkdədir.

Dövlət başçısı çıxışında Türk Şurasının mötəbər beynəlxalq təşkilatlarla əlaqələrinin genişləndiyini və hazırda BMT, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi qurumlarla səmərəli əməkdaşlığın mövcud olduğunu bildirib: "TÜRKSOY", Türk Mədəniyyəti və İrsi Fondu, Türk Akademiyası zəngin mədəni irsimizin tədqiqi, maddi və mənəvi dəyərlərimizin dünya səviyyəsində təbliğində əhəmiyyətli rol oynayır. Mənim Sərəncamımla 2019-cu il Azərbaycanda "Nəsimi İli" elan olunub. Bu günlərdə növbəti Nəsimi Festivalı təntənəli şəkildə keçirilib. Təqdirəlayiq haldır ki, TÜRKSOY dahi Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi münasibətilə 2019-cu ili "Nəsimi İli" elan edib".

## AZƏRBAYCAN DÜNYA SİYASƏTİNDƏ XÜSUSİ VƏ MÜHÜM YER TUTUR

Qeyd etdiyimiz kimi, zirvə görüşləri, ənənəvi olaraq, əməkdaşlığın müxtəlif sahələrini əhatə edən mövzulara həsr olunur. Builki tədbirin mövzusu isə, "Kiçik və orta sahibkarlığın inkişafı"dır. Bildiyimiz kimi, 2017-ci ildə Azərbaycanda Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yaradılıb. Agentliyin yaradılmasında məqsəd kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsidir. Cənab Prezidentin qeyd etdiyi kimi, ölkə daxilində və xaricində geniş fəaliyyət imkanlarına malik güclü sahibkarlar sinfi formalaşıb: "Sahibkarlığın İnkişafı Fondu tərəfindən indiyədək 36 min sahibkara 1,4 milyard ABŞ dolları həcmində güzəştli kredit ayrılıb. 2018-ci ildə özəl sektorun ölkəmizin ümumi daxili məhsulunda payı 85 faiz təşkil edir".

Təbii ki, müasir dünyamızda Azərbaycan bütün sahələrdə böyük inkişaf yolu keçib. Bu gün Azərbaycan dünya siyasətində xüsusi və mühüm yer tutur. Belə bir inkişaf yolu keçən Azərbaycana maraq artıb. "Son 16 ildə Azərbaycan iqtisadiyyatı üç dəfədən çox artıb" deyən Cənab Prezident ölkəyə 270 milyard dollardan çox sərmayə qoyulduğunu və bunun yarısının xarici sərmayə olduğunu bildirib: "Azərbaycan xarici borcu az olan dövlətdir. Azərbaycanın xarici borcu ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Bu göstəriciyə görə, biz dünyada doqquzuncu yerdəyik. İqtisadi sahədə aparılmış islahatlar beynəlxalq təşkilatlar tərəfindən də təqdir olunur. Dünya Bankının 2020-ci il üzrə "Doing Business" hesabatında Azərbaycan ən islahatçı 20 ölkə sırasında yer alıb. Hazırda Azərbaycan Türkiyə iqtisadiyyatına ən çox sərmayə qoyan ölkələrdən biridir. Belə ki, Azərbaycanın Türkiyə iqtisadiyyatına sərmayəsi 15 milyard ABŞ dolları, Türkiyənin Azərbaycan iqtisadiyyatına qoyulan sərmayəsi isə, 12 milyard ABŞ dolları təşkil edir".

## "DÜNYA MÜSƏLMANLARI ÜÇÜN MÜQƏDDƏS OLAN MƏSCİDLƏRİ DAĞIDAN ERMƏNİSTAN MÜSƏLMAN ÖLKƏLƏRİ İLƏ DOST OLA BİLMƏZ"

Dövlət başçısı tarixən Qədim İpək Yolunun üzərində yerləşən ölkələrimiz arasında bir çox sahələrdə nəqliyyat, enerji, təhlükəsizlik və s. sahələrdə əməkdaşlığın genişləndiyini bildirib. Bütün zirvə görüşlərində olduğu kimi, bu dəfə də Azərbaycanın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə diqqət yetirilib. Cənab Prezident Ermənistanın 30 ilə yaxındır ki, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq, Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirdiyini bildirib. Qeyd edib ki, işğal olunmuş ərazilərdə etnik təmizləmə siyasəti aparılıb, bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Həmin ərazilərdə Azərbaycan xalqına məxsus tarixi-mədəni irs, islam abidələri və məscidlərimiz dağıdılıb və məhv edilib: "Ermənistan çalışır ki, müsəlman ölkələri ilə sıx əməkdaşlıq qursun. Ancaq dünya müsəlmanları üçün müqəddəs olan məscidləri dağıdan Ermənistan müsəlman ölkələri ilə dost ola bilməz. Dinimizə qarşı edilən bu vandallıq Ermənistanın islamofob xislətini nümayiş etdirir".

Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin qəbul edildiyini diqqətə çatdıran Cənab Prezident bu qətnamələrdə işğalçı qüvvələrin Azərbaycan torpaqlarından qeyd-şərtsiz və tam çıxarılmasının, birmənalı olaraq, tələb edildiyini vurğulayıb: "Eyni zamanda, Qoşulmama Hərəkatı, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, NATO, Avropa Parlamenti, Avropa Şurası və digər təşkilatlar buna oxşar qərar və qətnamələr qəbul ediblər. Ermənistan bu qətnamə və qərarların tələblərinə məhəl qoymur, beynəlxalq hüquqi öhdəliklərinin icrasından boyun qaçırır. Dağlıq Qarabağ Azərbaycanın tarixi və əzəli torpağıdır, Azərbaycanın ayrılmaz hissəsidir. Münaqişə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşlərinin yekun bəyanatlarında da dövlətlərin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək, davamlı olaraq, təsbit edilir. Fürsətdən istifadə edərək, mən Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ədalətli həllini dəstəkləyən tərəfdaşlarımıza təşəkkür edirəm".

## "BİZ VAR GÜCÜMÜZLƏ ÇALIŞACAĞIQ Kİ, NÖVBƏTİ BİR İL ƏRZİNDƏ TƏŞKİLATIMIZ DAHA DA GÜCLƏNSİN VƏ QARŞIDA DURAN BÜTÜN VƏZİFƏLƏR UĞURLA İCRA EDİLSİN"

Qeyd edək ki, bu gün türkdilli ölkələrin siyasi fəallığı dünya siyasətinin gündəliyinin müəyyən edilməsinə getdikcə daha çox təsir göstərir. Şərq və Qərb sivilizasiyaları arasında mənəvi körpü rolunu oynamış türkdilli xalqlar tarix səhnəsində yenidən mütəşəkkil qüvvə kimi çıxış etməyə başlayıb. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşündə iqtisadi sahədə atılan addımlar, verilən qərarlar da əvvəlki sazişlər kimi dünyada türk birliyinin daha da güclənməsinə şərait yaradacaq. İlk dəfə olaraq, Özbəkistanın da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşündə tamhüquqlu üzvü kimi iştirakı, Budapeştdə Türk Şurasının Nümayəndəliyinin açılması türk dünyasının birliyinin daha da gücləndirilməsi istiqamətində atılan addımların davamı oldu. Naxçıvan sazişinin imzalanmasından keçən 10 il ərzində görülən işlər, qarşılıqlı səfərlər türk dövlətləri arasında inteqrasiyanı dərinləşdirmək üçün səmərəli platformaya çevrilib.

Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşündə Şuraya sədrliyi öz üzərinə götürdü. "Sizi əmin etmək istəyirəm, biz var gücümüzlə çalışacağıq ki, növbəti bir il ərzində təşkilatımız daha da güclənsin və qarşıda duran bütün vəzifələr uğurla icra edilsin" deyən Azərbaycan Prezidenti vurğulaıb ki, Azərbaycan təşkilata sədrliyi dövründə ölkələrimiz arasında həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə əməkdaşlığın daha da dərinləşməsi istiqamətində səylərini davam etdirəcək".

***Nəzakət ƏLƏDDİNQIZI***

# Yenilənmiş Azərbaycana yeni müxalifət lazımdır: radikal və dağıdıcı müxalifətdən qurtuluşun zamanı yetişib

***İyirmi altı il bundan əvvəl Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etmiş ümummilli lider Heydər Əliyevin ölkəmizin sanki bu gününə ünvanlanmış müdrik bir kəlamı var: "Tarix həmişə hər şeyi öz yerinə qoyur... Əgər hər hansı bir ölkənin vətəndaşları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik məmləkət belə ən böyük dövlət qədər qüdrətli olur". Ulu Öndər bu tarixi sözləri ölkəmizin ən ağır günlərində, xalqın gələcəyə inamının, ümidlərinin tükəndiyi çox çətin bir vaxtda söyləmişdi. Lakin o təkcə bu çətinliyi və reallığı görməklə, bu haqda həyəcan təbili çalmaqla kifayətlənməmiş, doğma xalqını öz ətrafında birləşdirərək siyasət meydanına atılmış , Azərbaycanın müstəqil dövlətçiliyini xilas etmişdir və bugünkü güclü dövlətimizin əsaslarını yaratmışdır.***

Həqiqətən keçən dövr göstərdi ki, tarix hər şeyi öz yerinə qoyur; bu xalqı sevməyən, bu dövləti dağıtmağa çalışan xəbis niyyətli insanların bütün planları zaman-zaman puç oldu. Min illər boyu yaşadığımız bu torpaqlarda babalarımızın xəyal belə edə bilməyəcəyi tarixin ən qüdrətli Azərbaycan dövləti quruldu. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş bu dövlət hazırda öz tarixinin ən möhtəşəm inkişaf dövrünü yaşayır. Tək elə buna görə Azərbaycan xalqının və onun müdrik liderinin adı qızıl hərflərlə tarixə yazilmışdır. Çünki, 1993-cü ildə ölkənin məhv olmaq təhlükəsini görən və nicatını öz liderinin - Heydər Əliyevin qayıdışına bağlayan da, 2003-cü ildə ölkəni yenidən 1990-cı illərin anarxiya və xaosuna qaytarmaq istəyənlərə yox deyərək, Heydər Əliyev siyasətinin davamçısı olan İlham Əliyevin ətrafında sıx birləşən də məhz bu xalqdır!

Cənab İlham Əliyev prezident kimi fəaliyyətə başlayarkən ilk çıxışında Heydər Əliyevin daxili və xarici siyasət kursunu dönmədən davam etdirəcəyini, ölkəni davamlı islahatlar yolu ilə gələcəyə aparacağını bəyan etmişdi. Aradan keçən zaman ərzində bu vədə dönmədən əməl olunmuş, ölkə həyatının bütün sahələrində Heydər Əliyev kursu, milli-mənəvi dəyərlərə sadiqlik qorunmaqla dinamik islahatlar həyata keçirilmişdir. İlham Əliyevin 16 illik prezidentlik fəaliyyəti onu məhz qurucu-islahatçı lider kimi xarakterizə etməyə tam əminlik yaradır. İslahatçı liderlər xalqının, dövlətin gələcək taleyi üçün lazım olan və vaxtı çatan dəyişiklikləri zamanında görür, müasir dövrün yeniliklərini və trendlərini uyğun formada öz ölkəsində tətbiq edir, davamlı islahatlar yolu ilə iqtisadi, siyasi və mənəvi həyatın bütün sahələrini modernləşdirirlər. Bununla yanaşı, yenilikçi liderlər həm də geniş xalq kütlələrini öz siyasəti və islahat kursu ətrafında birləşdirir, ictimai ideallara, milli-mənəvi dəyərlərə söykənir, onları inkişaf etdirir və qoruyurlar.

İlham Əliyev Azərbaycanın gələcək inkişafı ilə bağlı bu il fevralın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında çıxışı zamanı qeyd etmişdir ki, biz islahat naminə islahat aparmırıq, məqsədyönlü, düşünülmüş addımlar atırıq ki, ölkəmizin inkişafına təkan verək, hələ də həllini tapmamış problemləri həll edək, nöqsanları, xoşagəlməz halları, çatışmazlıqları aradan qaldıraq. Bizim gənclərimiz də dövlət həyatında yaxından iştirak etməlidirlər, yaxşı təhsil almalı, fiziki və mənəvi cəhətdən sağlam olmalı, milli vətənpərvərlik ruhunda böyüməlidirlər.

Bu fikirlərdə İlham Əliyevin islahatçı yanaşması özünü aydın şəkildə büruzə verir və bəzi postsovet ölkələrində müşahidə etdiyimiz "rəngli inqilab" ssenarilərindən köklü şəkildə fərqlənən inkişaf yolunu təqdim edir. Rəngli-qanlı inqilabların liderləri özlərinə qədər hər hansı idealların, siyasi, bəzən də mənəvi irsin mövcudluğunu inkar edir, cəmiyyətin kökündən yenidən qurulmasını, dilin, ölkənin adının, əlifbasının, bir sözlə, hər şeyin məhv edilərək yenidən başlanması yolunu tuturlar. Prezident İlham Əliyevin islahatlar kursunda belə eksperimentlərə, nihilist yanaşmalara yer yoxdur. 2019-cu ildə Azərbaycanda yeni islahatlara start verilməsi də "rəngli inqilab"ların təklif etdiyi yol deyil, 1930-cu, 1980-ci və 2000-ci illər Türkiyəsində, Konrad Adenauer Almaniyasında, 1980-1990-cı illərin Məhazir Muhəmməd Malayziyasında, 1960-1970-ci illərdə Sinqapur və Cənubi Koreyada, eləcə də qansız-rəngsiz inkişaf yolu keçmiş digər ölkələrdə müşahidə etdiyimiz təkamül, köklü islahatlar yoludur.

Xalqın mütləq əksəriyyətinin etimadı ilə 2003-cü ildə prezident seçilmiş İlham Əliyev "Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam" deyərkən sadə bir vəd vermirdi, xalqa xidmət missiyasının strateji hədəfini göstərir, ana xəttini ortaya qoyurdu. Azərbaycana rəhbərlik etdiyi 16 il ərzində İlham Əliyev verdiyi vədə, seçdiyi strateji xəttə sadiq qalaraq dini, etnik, sosial mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşın prezidenti olduğunu nümayiş etdirmişdir. O, hər zaman xalqının maraqları, rifahı, xoşbəxt gələcəyi üçün əzmlə çalışmış, milli mənafelərimizin müdafiəsi naminə beynəlxalq platformalarda ən ağır şərtlər altında belə öz mübarizəsindən, prinsipial mövqeyindən geri çəkilməmişdir. Dövlətimizin suverenliyi, müstəqilliyi naminə aparılan bütün mübarizələrin önündə dayanmışdır.

Bu illər ərzində Azərbaycanın iqtisadi bazisi kökündən dəyişmiş, ölkədə böyük sosial-iqtisadi və mədəni-mənəvi irəliləyişə nail olunmuşdur. Ötən müddət ərzində iqtisadiyyat 3,4 dəfə, sənaye 2,7 dəfə, kənd təsərrüfatı 1,5 dəfə artmış, ölkə iqtisadiyyatına 260 milyard dollardan çox investisiya qoyulmuşdur. Bu, müstəqillik dövründə Azərbaycana yatırılan investisiyaların 93 faizini təşkil edir və onun təxminən yarısı daxili mənbələrin payına düşür. Valyuta ehtiyatlarımız artıq 49 milyard dolları keçmiş, ölkədə 2 milyondan çox yeni iş yeri yaradılmışdır. Bəhs etdiyimiz dövr ərzində maaşlar və pensiyalar 10 dəfəyə qədər artırılmış, biznes mühitinin yaxşılaşdırılması ilə bağlı məqsədyönlü siyasət həyata keçirilmiş, güzəştli şərtlərlə sahibkarlara 2 milyard manatdan çox kredit verilmişdir.



**Əli Həsənov
Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor**

Ötən 16 il ərzində Azərbaycanın sosial-iqtisadi infrastrukturu başdan-başa yenilənmiş, paytaxt küçələrindən tutmuş ən ucqar bölgələrə qədər müasir nəqliyyat şəbəkəsi yaradılmış - 14 min kilometr yol çəkilmiş, 450 körpü inşa olunmuşdur. Paytaxtda 4 yeni metro stansiyası istifadəyə verilmiş, bir neçə stansiyada yenidənqurma işləri həyata keçirilmişdir. Onu da qeyd edim ki, Azərbaycan postsovet məkanında metro tikintisi aparılan iki ölkədən biridir. Azərbaycanın tranzit imkanlarını genişləndirən Xəzər dənizində ən böyük liman - Bakı Beynəlxalq Dəniz Ticarət Limanı fəaliyyətə başlamışdır. Ölkədə 3100-dən çox məktəb, 650-dən çox tibb müəssisəsi inşa edilmiş, yaxud əsaslı təmir olunmuşdur. Mədəni və elmi infrastruktur, o cümlədən tarixi binalar, teatr və muzeylər, ali təhsil ocaqları ən müasir standartlar səviyyəsində yenidən qurulmuşdur. Paytaxtda müasir tələbələrə uyğun inşa edilən idman sarayları, meydançalar illərdir əhaliyə xidmət göstərir, mühüm beynəlxalq idman tədbirlərinin yüksək səviyyədə keçirilməsini təmin edirlər. Bununla yanaşı, respublikanın bütün bölgələrində vətəndaşlara xidmət edən sosial mərkəzlər, Olimpiya-İdman kompleksləri və s. obyektlər inşa olunaraq istifadəyə verilmişdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda nəhəng transmilli energetika və nəqliyyat layihələri həyata keçirilmiş, 2006-cı ildə Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verilmişdir. 2014-cü il sentyabrın 20-də Avropanın enerji təhlükəsizliyinin, həmçinin Azərbaycanın perspektiv inkişafının və iqtisadi maraqlarının təmin edilməsində böyük rol oynayacaq Cənub Qaz Dəhlizinin təməli qoyulmuşdur. 2018-ci il mayın 29-da Bakıda Cənub Qaz Dəhlizinin, iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimi keçirilmişdir.

Prezident İlham Əliyevin ciddi səyi ilə Avropa və Asiyanı birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması və funksionallığının artırılması istiqamətində böyük işlər görülmüşdür. Respublikada 7 hava limanı yenidən qurularaq istifadəyə verilmişdir. Heydər Əliyev adına Beynəlxalq Hava Limanı isə dünyanın "5 ulduz"lu 9 əsas hava limanı sırasına daxil olmuşdur. Bütün bunlar onu deməyə əsas verir ki, ölkəmiz artıq nəhəng enerji və nəqliyyat qovşağına çevrilmişdir. Həmçinin Azərbaycan özünün üç süni peykini orbitə çıxararaq dünyada sayı məhdud olan kosmik ölkələr sırasına qoşulmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bütün bu işlərin əsas qayəsi, əlbəttə ki, ilk növbədə xalqa xidmətdir. Ötən dövrdə ölkəmizdə sadəcə modernləşmə və infrastruktur yenilənməsi baş verməmiş, dövlət idarəçiliyinin optimallaşdırılması istiqamətində ciddi addımlar atılmış, sosial-siyasi və digər sahələrdə sistem xarakterli köklü islahatlar həyata keçirilmişdir. Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin dövlətçilik irsini inkişaf etdirərək, yenilənmiş və modern Azərbaycan dövlətini yaratmağa müvəffəq olmuşdur. Bu dövlətin əhaliyə xidmət sferası da müvafiq olaraq tamamilə yenilənmiş, "şəffaflıq hər bir ölkənin gələcəyini müəyyən edən məsələdir" deyən dövlət başçımızın müvafiq qərarı ilə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyi təsis edilmiş, əhaliyə göstərilən xidmətlər "ASAN xidmət" mərkəzlərində - vahid sistemdə birləşdirilmişdir. Təkcə 2013-2018-ci illər ərzində bu mərkəzlərə 24 milyona yaxın müraciət qeydə alınmışdır. Beləliklə, Prezident İlham Əliyev bu addımı ilə eyni zamanda Azərbaycanın artıq dünyada tanınan, beynəlxalq miqyasda maraq göstərilən və tətbiq olunan "ASAN xidmət" brendini formalaşdırmışdır. Dövlət başçısının əhalinin məşğulluğu, əmək və sosial müdafiəsi ilə bağlı çevik və innovativ xidmətlər göstərilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi"nin (DOST) yaradılması və digər qərarları xalqa xidmət siyasətinin davamı kimi xarekterizə edilməlidir.

Hakim Yeni Azərbaycan Partiyası da öz liderinin təşəbbüslərinə və yeni dövrün çağırışlarına uyğun olaraq partiyanın vitrinini xeyli dərəcədə yeniləmişdir. Partiya öz sıralarına çoxsaylı yeni üzvlər, təşkilatı hakimiyyətdə və parlamentdə təmsil edəcək yeni intellektual kadrlar cəlb etmişdir. Yeni Azərbaycan Partiyası özünün siyasi ənənələrinə söykənən yenilənmə kursunu davamlı və ardıcıl şəkildə davam etdirmişdir.

Göründüyü kimi, Azərbaycan Prezidentinin daxili və xarici siyasətinin təməlində insan, vətəndaş amili, xalqın maddi-mənəvi, milli maraqları dayanır. Təbiidir ki, 16 il ərzində bir əsrə sığacaq nəhəng işlərə, böyük uğurlara imza atan liderin - cənab İlham Əliyevin yürütdüyü daxili və xarici siyasət Azərbaycan xalqı tərəfindən tam dəstəklənir. Keçirilən sorğuların nəticələri göstərir ki, xalqın dəstəyi Prezident İlham Əliyevə müstəqil, prinsipial, qətiyyətli, milli maraqları ifadə edən siyasət yürütməyə imkan verir. Belə liderə qalib gəlmək heç bir qüvvəyə, ələlxüsus da hazırkı radikal müxalifətə nəsib olmayıb, bundan sonra da olmayacaq. Bu ölkədə yenilənmək istəməyənlər yalnız 26 ildir Azərbaycanı xaos və anarxiyaya sürükləyən radikal müxalifət cəbhəsinin rəhbərləridir.

Ardı Səh. 6

# Yenilənmiş Azərbaycana yeni müxalifət lazımdır: radikal və dağıdıcı müxalifətdən qurtuluşun zamanı yetişib

Əvvəli-Səh-5

Uzun illərdir heç bir cəlbedici ideya və yaxud alternativ təklif ortaya qoya bilməyən, eyni cəfəng fikirləri təkrar-təkrar tirajlayan, bir neçə ambisiyalı şəxsin ətrafında cəmləşərək gecə-gündüz hakimiyyət eşqi ilə qovrulan, əsassız iddialarla dövlət qurumları və dövlət qulluqçularını mənəvi terrora, biabırçı söyüş kampaniyasına məruz qoyan, Azərbaycan cəmiyyətini ənənəvi pozucu fəaliyyətləri ilə bezdirən, 1990-cı illərin kif bağlamış qaranlığından çıxmaq iqtidarında olmayanlar keçən bütün dövr ərzində dayanmadan ölkədə hakimiyyətin dəyişməsini tələb etmişlər. Əlbəttə, heç bir iqtidar daimi deyil. Hər hansı bir siyasi partiyanın formalaşdırdığı iqtidarın ölkəni hansı müddətdə idarə etməsini Azərbaycan xalqı seçki yolu ilə müəyyən edir.

Bu il fevralın 18-də qələmə aldığım "Müxalifətçilik missiyası və Azərbaycanın milli maraqları" adlı məqaləmdə də qeyd etmişdim ki, cəmiyyətdəki fərqli kəsimlərin, o cümlədən müxalifətin cari proseslərə, gələcəyə hesablanmış proqramlara, konsepsiyalara baxış və rəylərini öyrənmək, alternativ ideyaları dəyərləndirmək və yeri gələndə, ən azı ehtiyat variant olaraq nəzərdə saxlamaq təkcə rasional idarəçilik baxımından deyil, həmçinin hakimiyyətdə olan komandanın istənilən siyasi rəqabətə daim hazır formada qalması üçün vacib şərtdir. Lakin Azərbaycan xalqı, onun iradəsi ilə formalaşmış dövlət strukturları, xalq qarşısında öz məsuliyyətini dərk edən hakimiyyət, əlbəttə ki, dövləti kimin, hansı qüvvələrin ümidinə buraxacağının fərqində olmalıdır. Məsuliyyətli hakimiyyət gələcək iqtidarların antimilli və məişət təfəkkürlü ünsürlər, yenilənmək istəməyən klaviatura qəhrəmanları, "sosial şəbəkə pələngləri", şübhəli xarici dairələr önündə xüsusi öhdəlikləri olan yalançı opponentlər tərəfindən formalaşdırılmasına qətiyyən yol verə bilməz. Sağlam və etibarlı iqtidarlar yalnız yüksək dövlətçilik təfəkkürünə malik, özünütənqid ruhunda yetişmiş, yeniliklərə, dünyada gedən qlobal proseslərə açıq, xalqın fərqli kəsimləri ilə işləməyə hazır və qadir olan iradəli, milli düşüncəli insanlar tərəfindən formalaşırlar. Odur ki, dövlətimizin indiyə qədər qət etdiyi yol, cəmiyyətin bugünkü reallıqları və inkişaf perspektivləri iqtidar komandası tərkibində, hakimiyyət strukturlarında olduğu kimi, müxalifət düşərgəsində, siyasi partiyaların rəhbərliyi və tərkibində də daim yenilənməni, yeni düşüncəli, yeni təfəkkürlü və sağlam reputasiyalı insanların ortaya çıxaraq sağlam opponentlik missiyasını öz əllərinə almasını əsl sosial sifarişə çevirmişdir.

Lakin nədənsə biz yeni müxalifətin yaranma zərurəti haqqında danışanda, bəzi opponentlərimiz məsələyə ifrat həssaslıqla mənfi reaksiya verirlər. Əgər, doğrudan da siyasi mübarizə aparmaq, "pozisiyada" deyil, "oppozisiyada" olmaq iddia edildiyi kimi, məhrumiyyətlər, sıxıntılar, təqiblər, itkilər deməkdirsə, o zaman onların yeni qüvvələr tərəfindən əvəzlənməsi niyə bu qədər narahatlıq yaratsın ki? Axı yeni müxalifət, yeni qüvvələr deyəndə başqa bir məmləkətdən, başqa bir qalaktikadan sifarişlə hansısa yeni siyasi liderləri gətirib partiyaların başına qoymaqdan, yaxud opponent etməkdən söhbət getmir. Son prezident, parlament, bələdiyyə seçkilərinin nəticələri ortadadır, burda II, III, IV nəticə göstərən qüvvələr var, onların adları, ünvanları cəmiyyətə bəllidir, fəaliyyətləri də göz qabağındadır. Onlar parlamentdə, bələdiyyələrdə təmsil olunurlar. Bu partiyaların fəaliyyətinin də nə dərəcədə səmərəli olub-olmadığını növbəti seçkilərdə seçicilər müəyyən edəcək. Yəni, iqtidarın necə yanaşmasından asılı olmayaraq, cəmiyyətdə yeni müxalifət formalaşır. Əlbəttə, biz fərqindəyik ki, sosial şəbəkələrin, yeni informasiya vasitələrinin imkanlarından istifadə edərək özünü cəmiyyətə yaxşı təqdim etməyi bacaran, müəyyən alternativ ideoloji baxışların daşıyıcıları olan gənc və orta nəsil siyasətçilər də meydana çıxmaqdadır. Yaxud, köhnə müxalifətin içərisindən müəyyən insanlar bu imkanlardan istifadə edib özlərini cəmiyyətə yeni biçimdə təqdim etməkdədirlər. Həmçinin vaxtilə AXC hakimiyyətində təmsil olunmuş və AMİP, Müsavat, AXCP, ASDP sıralarında olmuş onlarla siyasətçi, mütəxəssis, ekspert dövlət qurumlarında, QHT sektorunda, elm sahəsində, biznesdə, parlamentdə uğurla fəaliyyət göstərir, fərqli beynəlxalq platformalarda ölkəmizi layiqincə təmsil edirlər. Əminik ki, bu cür potensialı olan, lakin hazırda üzv olduqları müxalif partiyaların dəyişməz rəhbərləri tərəfindən potensiallarının açılmasına imkan verilməyən çoxsaylı gənclər də ortaya çıxacaqdır. Yaşlı və orta nəsil müxaliflərə gəlincə, onların arasında antimilli fəaliyyətdə, "xüsusi söyüş dəstələri"nin təşkilində iştirak etməmiş sabiq nazirlər, keçmişdə iri məmur korpusunda təmsil olunan şəxslər də var. Biz "yeni müxalifət" deyəndə məhz ölkəmizin belə geniş spektrini nəzərdə tuturuq. Düşünürəm ki, bu geniş spektr Azərbaycanda sivil mübarizə aparmaq istəyən, ölkədəki nümunəvi sabitliyin davam etməsində və lazımi məqamlarda yenilənməsində maraqlı olan bütün ictimai-siyasi qüvvələri əhatə edir. Biz bu cür qüvvələri təqdir edirik, bu il sentyabrın 9-da dərc edilmiş məqaləmdə də vurğuladığım kimi, Azərbaycan iqtidarı dövlətə və dövlətçiliyə xidmət etmək istəyən hər bir qrup və ya şəxslə əməkdaşlığa tam açıqdır.

Əminəm ki, bu gün xalqı inqilaba səsləyənlərin bir zamanlar öz cılız siyasi ambisiyaları ilə uçurumun kənarına gətirdikləri, yalnız ümummilli lider Heydər Əliyevin müdrikliyi sayəsində xilas olan, Prezident İlham Əliyevin rəhbərliyi ilə başdan-başa yenilənib qüdrətli dövlətə çevrilən Azərbaycanın yenidən 1990-cı illərin riskləri ilə üz-üzə buraxılmasına xalqımız və dövlətimiz heç zaman imkan verməyəcək. Xalqımız 2003-cü ildə İlham Əliyevə ciddi etmiad göstərmiş və böyük səs çoxluğu ilə onu özünə rəhbər seçmiş, sonrakı seçkilər də bu etimadın daha da yüksəldiyini əyani şəkildə nümayiş etdirmişdir. Prezident İlham Əliyev ökəmizə 16 illik rəhbərliyi dövründə Azərbaycanı daha müasir, güclü, beynəlxalq münasibətlər sistemində layiqli yeri olan, sözünü deməyi və prinsipial mövqeyini sonadək müdafiə etməyi bacaran bir dövlətə çevirməyi bacarmışdır. Hazırda keçirilən sorğuların nəticələri də təsdiq edir ki, Azərbaycan xalqı İlham Əliyevə alternativ görmür, onun arxasındadır, ona etimadı və güvəni hədsizdir. Amma ötən 26 ildə radikal qrupların təhriki və anti-milli fəaliyyəti nəticəsində yalnız qalmaqlallarla, didişmələrlə, ziddiyyətlərlə, qopma və parçalanmalarla yadda qalan qeyri-konstruktiv müxalifət bu gün fəlakətin bir addımlığındadır. Reallıq budur ki, cəmiyyətimiz davamlı şəkildə onun sabit, təhlükəsiz və inkişafda olan həyat ritmini pozmağa çalışan belə müxalifətçilərlə birlikdə gələcəyə doğru addımlaya bilməz. Bu müxalifət hakimiyyət uğrunda sivil mübarizə metodlarını inkar edir, hal-hazırda belə dağıdıcı və qeyri-konstruktiv qruplarla iqtidar-müxalifət dialoqunu təşkil etmək mümkünsüz görünür və onların bundan sonrakı dövrdə siyasi arenada qalması ölkəmizin siyasi palitrası üçün yaxşı heç nə vəd etmir. Oktyabrın 8-də Bakı Şəhər İcra Hakimiyyətinin razılığı ilə keçirilən 50 nəfərlik qanuni piketi qeyri-qanuni küçə yürüşü və mitinqə, özlərinin iddia etdiyi kimi "sosial inqilaba", vətəndaş qarşıdurmasına çevirmək istəyənlər, süni qarışıqlıq yaradaraq öz çirkin məqsədlərinə nail olmağa çalışanlar, əlbəttə ki, yenilənməyə müqavimət göstərəcəklər.

Azərbaycanda yenilənmək istəməyən də məhz belələridir ki, özlərinin bir ovuc tərəfdarı ilə aranı qarışdırmağa cəhd göstərməkdən başqa bir fəaliyyət ortaya qoya bilmirlər.

Bəli, bu gün Azərbaycanda hər şey inkişaf edir və yenilənir. Hətta, müxalifətin əsas etiraz məkanı olan "Məhsul" stadionu da yenidən qurulur, təmir olunur və müasir görkəm alır. Amma 26 il müddətində radikal müxalifət düşərgəsində rəhbər kürsüləri zəbt edərək, sivil istefa nümunəsi ortaya qoymağı bacarmayan Əli Kərimli tipli "əvəzsiz liderlər" təmsil olunduqları düşərgədə istənilən pozitiv dinamikanı öz mövcudluqları üçün təhlükə hesab edirlər. Buna görə də xalq tərəfindən kütləvi şəkildə baykot olunmuş bu radikal və dağıdıcı müxalifət "liderlərindən" qurtuluşun tam zamanıdır. Dinamik inkişaf edən, müasirləşən Azərbaycana, yeniləşən cəmiyyətimizə, yenidən qurulan geniş meydanlara sağlam düşüncəli təşkilatlar, qurucu, konstruktiv və sağlam müxalif qüvvələrin gəlişi zamanın tələbidir.



## XİN: Azərbaycan hər zaman Ukraynanın etibarlı və yaxın dostu olub

Azərbaycan hər zaman Ukraynanın etibarlı və yaxın dostu olub. Bu fikir Ukraynanın Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-ın bu ölkədəki xüsusi müxbirinə bildirilib. Qeyd edilir ki, bu gün də Azərbaycan və Ukrayna arasında əməkdaşlıq davam etməkdədir. "Dost Azərbaycan dövlətini və xalqını Dövlət Müstəqilliyi Günü münasibətilə təbrik edirik", - deyə məlumatda bildirilib.

## MSK sədri: Azərbaycanda bələdiyyə seçkilərinin keçirilməsi ilə bağlı heç bir maneə yoxdur



Azərbaycanda bələdiyyə seçkilərinin keçirilməsi ilə bağlı heç bir maneə görmürük. Bunu Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov komissiyanın dünən keçirilən iclasında deyib./Trend/ MSK sədri bildirib ki, seçkilərin keçirilməsi sahəsində Azərbaycanın geniş təcrübəsi var. O qeyd edib ki, bələdiyyə seçkiləri ilə bağlı bütün müvafiq tədbirlər, o cümlədən maarifləndirmə işləri lazımi qaydada həyata kerçirilələcək. M.Pənahov əlavə edib ki, seçkilərlə bağlı bütün əhəmiyyətli məqamlar KİV tərəfindən cəmiyyətə çatdırılır.

Qeyd edək ki, bu il Azərbaycanda bələdiyyə seçkiləri dekabrın 23-də keçiriləcək.

## Nazir: "Azərbaycanda pensiyaların məbləği 293 manat olacaq"

"Gələn il ölkədə əmək pensiyalarının orta aylıq məbləğinin 16 faiz artmaqla 293 manata çatması proqnozlaşdırılır". SİA-nın məlumatına görə, bunu oktyabrın 15-də Prezident İlham Əliyevin yanında iqtisadi müşavirədəki çıxışında Əmək və Əhalinin Müdafiəsi naziri Sahil Babayev bildirib. Nazir aparılan optimallaşdırma işlərinin, eyni zamanda əsassız təyin edilən pensiyaların ləğvi nəticəsində cari ilin 9 ayında 99 milyon manata qənaət edildiyini deyib. O bildirib ki, növbəti dövrlər ərzində bu istiqamətdə işlərin davam etdirilməsi nəticəsində həmin məbləğ daha da artacaq və əmək pensiyalarının davamlı şəkildə artımına yönəldiləcək. Minimum əmək pensiyasının 200 manata çatdırıldığını vurğulayan S. Babayev qeyd edib ki, bununla da ölkəmiz minimum pensiyanın alıcılıq qabiliyyəti indeksi üzrə MDB məkanında birinci yerdədir. Orta aylıq pensiyanın alıcılıq qabiliyyəti indeksi üzrə isə ölkəmiz MDB məkanında ilk ikilikdə qərarlaşa bilər.



# YAP İcra Katibliyində Dövlət Müstəqilliyi Günü münasibətilə gənc memarların yaradıcılıq sərgisi keçirilib

***Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günü ilə əlaqədar oktyabrın 18-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyində gənc memarların yaradıcılıq sərgisi keçirilib. AZƏRTAC xəbər verir ki, sərginin açılış mərasimində çıxış edən YAP icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov 18 oktyabr - Dövlət Müstəqilliyi Günü münasibətilə təbriklərini çatdırıb. O bildirib ki, Azərbaycan xalqı xoşbəxtdir ki, onun müstəqil dövləti var. Dünyada 3 minə qədər xalqın olduğunu deyən YAP icra katibinin müavini vurğulayıb ki, onların yalnız 200-nün dövləti var. Bu mənada Azərbaycan xalqı xoşbəxtdir.***









Azərbaycanın müstəqilliyə gedən yolunun çox çətinliklərdən keçdiyini deyən S.Novruzov qeyd edib ki, 1991-ci ildə müstəqilliyimiz elan olunan zaman cəmiyyətimizdə vəziyyət normal deyildi. Belə ki, 1990-cı illərin əvvəlində Azərbaycan dərin siyasi, sosial-iqtisadi böhran keçirirdi, ölkədə xaos, anarxiya baş alıb gedirdi, digər tərəfdən torpaqlarımız Ermənistan tərəfindən işğal olunurdu. Azərbaycan məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Belə bir şəraitdə xalqımız nicat yolunu ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıtmasında gördü. Həmin dövrdə Azərbaycanın anarxiya, parçalanmaq və məhv olmaq təhlükəsi, iqtisadi tənəzzül, beynəlxalq təcrid ilə üzləşdiyini diqqətə çatdıran icra katibinin müavini ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizin bu bəlalardan xilas olaraq inkişaf yoluna qədəm qoyduğunu, ictimai-siyasi sabitliyin bərpa edildiyini, respublikamızda mühüm siyasi və iqtisadi islahatların həyata keçirildiyini, neft strategiyasının reallaşdırıldığını, cəbhədə atəşkəsin əldə olunduğunu, nizami ordu quruculuğu prosesinə başlandığını, cəmiyyətin inkişafı üçün fundamental əsasların yaradıldığını bildirib.

Qeyd edilib ki, Ulu Öndərin işləyib hazırladığı müasir, müstəqil dövlət quruculuğu konsepsiyası müasir Azərbaycanın uğurlarının bünövrəsində dayanaraq gələcək inkişafın, misli görünməmiş uğurların əsasını qoyub. Bu gün Heydər Əliyev siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycan ötən illər ərzində böyük inkişaf yolu keçib, iqtisadiyyat artıb, əhalinin sosial rifahı yüksəlib, ölkəmizin beynəlxalq müstəvidə mövqeyinin gücləndirilməsi istiqamətində mühüm addımlar atılıb. Bu gün müstəqilliyimizin 28-ci ildönümünü qeyd edirik və bununla qürur duyuruq. Prezident İlham Əliyev öz siyasəti ilə dövlətimizin və xalqımızın maraqlarını ən yüksək səviyyədə qoruyur. Buna görə də ötən illər ərzində müstəqil dövlətimiz güclənib, beynəlxalq müstəvidə nüfuzu əhəmiyyətli dərəcədə artıb. Dövlət başçısının həyata keçirdiyi islahatlar çox uğurlu nəticələr verir. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva öz fəaliyyəti ilə dövlətimizin daha da güclənməsinə xidmət edir. Onun xüsusilə sosial sahədə həyata keçirdiyi tədbirlər xalqımız tərəfindən yüksək qiymətləndirilir. Müstəqil dövlətimizin güclənməsində Yeni Azərbaycan Partiyası və onun üzvləri də fədakarlıq göstərir.

Bu sərginin də rəmzi məna daşıdığını deyən S.Novruzov vurğulayıb ki, burada gənc memarlar Azərbaycanın gələcəyini necə gördükləri haqqında ekspozisiya təqdim edirlər. Bu yaradıcılıq nümunələri Bakı Mühəndislik Universitetinin tələbələri tərəfindən hazırlanıb. O, əminliyini ifadə edib ki, bu gənclər öz fəaliyyəti ilə gələcəkdə müstəqil ölkəmizə layiqincə xidmət edəcəklər.

Tədbirdə çıxış edən Bakı Mühəndislik Universitetinin rektoru Havar Məmmədov rəhbərlik etdiyi ali məktəbin fəaliyyəti haqqında məlumat verib. O deyib ki, bu sərgidə universitetin 27 tələbəsinin 40-a yaxın əl işi təqdim olunur. Rektor sərginin təşkilinə görə Yeni Azərbaycan Partiyasına təşəkkür edib. Tədbirdə, həmçinin Bakı Mühəndislik Universitetinin tələbələri, gənc memar-dizaynerlər Əli Həsənbəyli və Jalə Əhmədova çıxış ediblər. Sonra sərgidə əl işləri təqdim olunan gənc memar-dizaynerlərə sertifikatlar təqdim olunub.







# Azərbaycanın uğurlu inkişafı davam edəcək

***15 oktyabr 2019-cu il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cənablarının yanında keçirilən iqtisadi müşavirədə ölkə başçısının söylədiyi nitqdə respublikamızın bu ilin doqquz ayının sosial-iqtisadi yekunlarına qiymət verilmiş, əldə olunan uğurlardan danışılmış və qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir. Qeyd olunub ki, doqquz ayın sosial-iqtisadi nəticələri müsbətdir. Qeyri-neft sektorunda artım 3 faizdən çox olmuşdur.***

Qeyri-neft sənayesində isə artım, 15 faizdən çox olmuşdur. Cənab Prezidentin qeyd etdiyi kimi, bu, dünya miqyasında rekord göstərici hesab oluna bilər. Kənd təsərrüfatında da ciddi irəliləyiş əldə olunmuşdur. Əvvəlki illərdə bu artım 2-3 faiz təşkil edirdisə, bu ilin doqquz ayında artım 7 faizdən çox olmuşdur. İnfilyasiya 2 faizdən bir qədər çoxdur ki, bu da, çox aşağı səviyyə hesab olunur.

Cənab Prezidentin təşəbbüsü ilə bu ilin əvvəlindən böyük bir sosial paket reallaşdı - 4 milyon 200 mindən şox Azərbaycan vətəndaşının maddi vəziyyəti yaxşılaşdı. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə, Azərbaycan MDB məkanında birinci yerdə, orta aylıq pensiyanın həcminə görə isə, üçüncü yerdədir.

Beynəlxalq aparıcı maliyyə qurumlarının və digər aparıcı beynəlxalq təşkilatların hesabatlarında Azərbaycan öz mövqeyini durmadan yaxşılaşdırır. "Doinq Business"in hesabatında biznes mühitinə görə, Azərbaycan dünya miqyasında 25-ci yerdədir. Son hesabatlarda Azərbaycan yenə də 20 ən islahatçı ölkə sırasında yer alır. Davos Ümumdünya İqtisadi Forumunun yeni hesabatına görə, Azərbaycan bir çox sahələrdə dünya miqyasında mühüm göstəricilərə nail olmuşdur.

Mülkiyyət hüquqlarının qorunması sahəsində Azərbaycan 37-ci hökumətin, yeni dövlətin və rəhbərliyin uzunmüddətli strategiyasına görə, 10-cu yerdədir. Rəhbərliyin dəyişikliklərə, yeni islahatlara meyillilik səviyyəsinə görə, respublikamız 5-ci yerdə, nəqliyyat infrastrukturuna görə 31-ci, yol infrastrukturuna görə 27-ci yerdəyik və MDB məkanında birinci yerdəyik. Azərbaycan dəmir yollarının səviyyəsinə görə 34-cü, nəqliyyat xidmətlərinin səmərəliliyinə görə 12-ci, elektrik enerjisinin əlçatarlıq əmsalına görə isə, dünyada ikinci yerdəyik.



**Rauf Əliyev, Millət vəkili**

Cənab Prezident bildirmişdir ki, bütün bunlar Azərbaycanda həyata keçirilən islahatlara və görülən işlərə verilən qiymətdir. Ancaq ən böyük qiymət Azərbaycan xalqı tərəfindən verilən qiymətdir. Bu yaxınlarda aparılan sorğuya əsasən, demək olar ki, əhalinin mütləq əksəriyyəri Azərbaycan rəhbərliyini, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti birmənalı şəkildə dəstəkləyir. Qarşıda duran vəzifələrdən danışarkən Cənab Prezident islahatların davam etdirilməsinin, o cümlədən, kadr islahatlarının aparılmasının vacibliyini qeyd edərək müasir dünyagörüşlü, müasir iqtisadiyyatı bilən, savadlı gənc kadrların işə cəlb olunmalarının vacibliyini bildirmişdir.

Cənab Prezident onu da qeyd etmişdir ki, bu gün iqtidarda olan bəziləri də islahatlara qarşı çıxırlar. Bu islahatlar onların şəxsi maraqlarına toxunur. Onlar hər vəchlə bizim işimizə əngəl törətmək istəyirlər. İslahatlara meyilli olan, yeni təfəkkürə malik kadrları qaralayırlar. Dözülməz haldır ki, bir hökumətin bəzi üzvləri, digər üzvləri tərəfindən şantaj edilir. Cənab Prezident belələrinə xəbərdarlıq edərək bildirmişdir ki, "Əgər kimsə hesab edir ki, biz bununla barışmalıyıq, səhv edir. Çünki islahatlara alternativ yoxdur. Kim bu yolun yolçusudursa, əlbəttə, işləyəcək. Amma kim buna qarşı çıxır və altdan-altdan bizim işimizə mane olmaq istəyir, əlbəttə ki, biz belə adamlarla bir yolun yolşusu ola bilmərik." Hesab edirəm ki, Cənab Prezidentin bu qətiyyətli çıxışı cəmiyyət üzvlərinin əksəriyyəti tərəfindən müsbət dəyərləndirilir və öz vətənini sevən hər bir azərbaycanlını Prezident İlham Əliyevin ətrafında daha sıx birləşməyə çağırır. Əminəm ki, qədirbilən Azərbaycan xalqı İlham Əliyev Cənablarının ətrafında daha sıx birləşərək Prezidentin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən müstəqil demokratik dövlət quruculuğu siyasətinin həyata keçirilməsində yaxından iştirak edəcəklər.

# Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin növbəti iclası keçirilib

Oktyabrın 18-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin növbəti iclası keçirilib. AZƏRTAC xəbər verir ki, komitə sədri Aqiyə Naxçıvanlı iclasda Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü ilə komitəyə daxil olmuş "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının təsdiq edilməsi barədə" qanun layihəsinin müzakirə olunacağını bildirdi.




Qeyd olundu ki, sənəd Avropa Şurasının dövlət və hökumət rəhbərlərinin üçüncü Zirvə toplantısında qəbul edilmiş Fəaliyyət Planına, "İnsan hüquq və azadlıqlarının müdafiəsi haqqında" Konvensiyaya, BMT-nin "Uşaq hüquqları haqqında" və "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" konvensiyalarına, eləcə də digər beynəlxalq hüquq normalarına istinad olunaraq hazırlanıb.

Komitə sədri onu da vurğuladı ki, "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurasının Konvensiyası Prezident İlham Əliyevin qərarı ilə verilmiş Azərbaycan Respublikasının müvafiq bəyanatı ilə birlikdə təsdiq olunması üçün Milli Məclisə təklif olunub. Bəyanatda deyilir: "Azərbaycan Respublikası bəyan edir ki, Konvensiyanın müddəaları Ermənistan Respublikasına münasibətdə Azərbaycan Respublikası tərəfindən tətbiq edilməyəcəkdir.

Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə Konvensiyanın müddəalarının həyata keçirilməsinə (həmin ərazilər işğaldan azad olunanadək) təminat verilmir. Bu bəyanatın 1-ci və 2-ci bəndinin müddəalarını istənilən zaman dəyişdirmək və ya ləğv etmək hüququnu Azərbaycan tərəfi özündə saxlayır və digər tərəflər hər hansı bu cür dəyişikliklər və ya ləğvetmələr haqqında yazılı şəkildə məlumatlandırılacaqlar".

Çıxış edən komitə üzvləri Sahibə Qafarova, Sədaqət Vəliyeva, Tahir Rzayev, Ağacan Abiyev, Dilarə Cəbrayılova milli maraqlarımızın qorunmasına xidmət edən sənədin uşaqların gələcəyində böyük əhəmiyyətə malik olacağını söylədilər. Müzakirələrin sonunda qanun layihəsi "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurasının Konvensiyasına dair Azərbaycan Respublikasının müvafiq bəyanatı ilə birgə Milli Məclisin plenar iclasına baxılmaq üçün tövsiyə olundu.

# Ukrayna telekanalında Azərbaycanla bağlı geniş veriliş yayımlanıb

18 oktyabr - Dövlət Müstəqilliyi Günü ərəfəsində Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev bu ölkənin tanınmış UATV telekanalına müsahibə verib. AZƏRTAC xəbər verir ki, səfir müsahibəsində ölkəmizin müstəqilliyini bərpa etdikdən sonra separatizmə, Ermənistan tərəfindən işğala məruz qaldığını vurğulayıb. BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal olunmuş ərazilərinin dərhal azad edilməsinə dair qətnamələri qəbul olunsa da, təəssüf ki, bu günə qədər dünya birliyi Ermənistanın işğalçılıq siyasətinə göz yumur. Bu gün də Ukrayna bu separatizmlə üz-üzə qalıb.




"Bu gün beynəlxalq təşkilatlarda Azərbaycan və Ukrayna bir-birilərinin suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir. Azərbaycan BMT-də Ukraynanın ərazi bütövlüyünə dair qətnaməsinə səs verib", - deyə səfir əlavə edib. A.Xudiyev müsahibəsində, ötən 28 ildə Azərbaycanın həyata keçirdiyi qlobal enerji, nəqliyyat layihələri barədə də geniş məlumat verib. O deyib: "Bu gün Azərbaycan regionda lider dövlətə çevrilib. İri iqtisadi, enerji, nəqliyyat layihələrinin müəllifidir. Azərbaycan "Bir kəmər, bir yol" təşəbbüsünün reallaşdırılmasında fəal iştirak edir". Verilişdə Azərbaycan və Ukrayna arasında diplomatik münasibətlərin 100 illik tarixinə, GUAM çərçivəsində əməkdaşlığı barədə də məlumat verilib.

# Azərbaycanın ən çox məhsul idxal etdiyi ölkələrin adları açıqlanıb




Azərbaycan cari ilin yanvar-sentyabr aylarında ən çox Rusiyadan məhsul idxal edib. Dövlət Gömrük Komitəsindən bildirilib ki, 9 ayda ölkəyə ən çox Rusiya ilə yanaşı, İsveçrə və Türkiyədən məhsul idxal olunub. Rusiyadan idxalın dəyəri 1 milyard 605 milyon 411 min ABŞ dolları, İsveçrədən 1 milyard 201 milyon 315 min dollar, Türkiyədən isə 1 milyard 150 milyon 108 min dollar olub. Cari ilin yanvar-sentyabr aylarında Azərbaycanla İsrailin ticarət dövriyyəsinin həcmi 1 milyard 105 milyon 911 min ABŞ dolları olub.

# Rasim Quliyev: "Azərbayan xalqının ən böyük sərvəti onun müstəqilliyidir"



*"Bu gün Azərbayan tarixinə müstəqil dövlətin hüquqi cəhətdən müstəqilliyinin rəsmiləşdirildiyi əlamətdar gün kimi daxil olub". Bu fikirləri SİA-ya açıqlamasında "Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri, siyasi ekspert Rasim Quliyev deyib.*

Bu gün dünyada mövcud olan 5 mindən çox xalqın heç də hamısının müstəqil dövləti olmadığını deyən R.Quliyev bildirib ki, Azərbayan xalqının ən böyük sərvəti, neməti onun müstəqilliyidir. Ekspert söyləyib ki, Azərbaycanın müstəqil dövlət kimi qurulması yolu heç də hamar olmayıb. Azərbaycanın müstəqillik qazanmaq üçün keşməkeşli, çətin yollardan keçdiyini söyləyən R.Quliyev vurğulayıb ki, ölkəmizin uzun bir dövrə söykənən dövlətçilik ənənəsinin olmasına baxmayaraq, Azərbaycan yalnız 200 ildən sonra yenidən öz müstəqilliyini qurmaq səadətinə nəsib olub: "Ölkəmiz keçmiş Sovetlər Birliyinin tərkibində digər respublikalar kimi 70 il yaşasa da, müstəqillik arzusunu hər zaman qəlbində yaşadıb. Lakin Azərbaycan ötən əsrin 90-cı illərində bu ittifaqın dağılması nəticəsində yaranan geopolitik vəziyyətdən əlverişli şəraitdən istifadə edərək öz müstəqillik aktını qəbul etdi".

Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun ötən gün mətbuatda dərc edilmiş 18 oktyabr Azərbaycanda Müstəqillik Aktının qəbul olunmasına həsr olunan məqaləsini xatırladan siyasi ekspert vurğulayıb ki, Prezidentin köməkçisinin hər bir tezisi böyük elmi işin əsası idi: "Əli Həsənov bir alim kimi bu materalı cəmiyyət üçün tezisləşdirsə də, orada qeyd olunan hər bir fikir elmi əsərlərin əsasını təşkil edir. Yazıda Azərbaycanın müstəqilliyini qazanması yolu çox geniş şəkildə təsvir olunub".

Azərbaycan xalqının müstəqillik qazanmaq üçün dəfələrlə mübarizəyə qatıldığını deyən R.Quliyev qeyd edib ki, xalqımız əsrin əvvəlində Şərqdə ilk dəfə demokratik parlament respublikası qurmağa nail olub: "Həmin xalq ötən əsrin 80-ci illərin sonu və 90-cı illərin əvvəllərində yenidən meydana çıxaraq öz müstəqilliyini bərpa etdi".

R.Quliyev vurğulayıb ki, bu gün 195 ölkə dövlət olaraq tanınır: "Onlardan 193-ü BMT-nin qeydiyyatından keçib, lakin Fələstin və Vatikan hələ də qeydiyyatdan keçməyib. Bu gün Azərbaycan xalqı müstəqil dövlətə sahib olduğu üçün çox xoşbəxtdir. Bu gün dünya əhalisinin 60 milyonunu azərbaycanlılar təşkil edir. Azərbaycan təkcə ölkəmizdə yaşayan 10 milyon insanın deyil, həm də bütün dünyada yaşayan azərbaycanlıların dövlətidir. Müstəqillik günü münasibətilə hər bir azərbaycanlını təbrik edirəm".

## Ərdoğan: "120 saat ərzində məlum terror təşkilatı təhlükəsiz bölgə olaraq təyin edilən ərazini tərk etməlidir"

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Suriyanın Fərat çayının şərqində həyata keçirilən "Sülh çeşməsi" antiterror əməliyyatının 120 saatlıq dayandırılması barədə açıqlama verib.



AZƏRTAC xəbər verir ki, dövlət başçısı Türkiyə və ABŞ arasında Suriyanın şimal-şərqindəki vəziyyətlə bağlı əldə olunan razılaşmanı qiymətləndirib. Bildirilib ki, hazırda davam edən 120 saat ərzində məlum terror təşkilatı təhlükəsiz bölgə olaraq təyin edilən ərazini tərk etməlidir. Əldə olunan razılaşmanın bir xüsusiyyətinin də Türkiyənin bölgədə yerləşən təhlükəsizlik qüvvələrinin oranı tərk etməməsi olduğunu deyən Prezident qeyd edib ki, bu müddət ərzində heyətlər arasında danışıqlar davam edəcək.

# "Təkmil sosial-iqtisadi islahatlar Azərbaycanın davamlı inkişafını təmin edir"

***"Ölkənin inkişafında əsas faktor olan iqtisadi tərəqqinin davamlılığını təmin etmək üçün zəruri addımların atılması, ən əsası sosial-iqtisadi islahatların zamanın tələbinə uyğun təkmilləşdirilməsi dayanıqlı inkişafı şərtləndirir. Dövlətimizin başçısı İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin iclasları, həmçinin ölkə Prezidentinin yanında sosial-iqtisadi müşavirələr Azərbaycanın uğurlarının təqdimatında, prioritetlərin açıqlanmasında əhəmiyyətli rol oynayır. Hər bir iclas ötən dövrün hesabatı kimi dəyərləndirilir". Bu fikirləri SİA-ya YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə dövlətimizin başçısı İlham Əliyevin yanında keçirilən iqtisadi müşavirə ilə bağlı fikirlərini şərh edərkən söyləyib.***



"Ölkə Prezidenti İlham Əliyev sosial-iqtisadi uğurlarımızı statistik rəqəmlər əsasında diqqətə çatdırmaqla bir daha bu reallığı ortaya qoydu ki, "güclü dövlət, yüksək rifah" sadəcə bir niyyət deyil, dövlətimizin həyata keçirdiyi siyasətin əsas prinsipidir" söyləyən V.Rəhimzadə statistik rəqəmlərə müraciət edərək bildirdi ki, iqtisadi göstəricilərimiz insanların gündəlik həyatında da öz əksini tapıb. Belə ki, iqtisadi inkişaf güclü sosial siyasətə yol açmaqla əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımların atılmasını təmin edir. Müşavirədə bu rəqəm də açıqlandı ki, cari ilin ötən dövründə iki sosial paket reallaşıb və bu sənədlər 4 milyon 200 mindən çox insanın maddi durumunun yaxşılaşdırılmasına şərait yaradıb. Cənab İlham Əliyev 16 il bundan öncə bu vədi vermişdi ki, əmək haqları, pensiyalar ildə ən azı iki dəfə artırılmalıdır. Ötən dövr ərzində artan maliyyə imkanlarının ilk növbədə sosial müdafiənin gücləndirilməsinə yönəldilməsi də deyilənlərin təsdiqidir.

V.Rəhimzadə qeyd edib ki, əhalinin sosial müdafiəsinin prioritetliyi bütün dövrlərdə öz aktuallığını qoruyur: "Bir faktı qeyd etmək kifayətdir ki, minimum pensiyanın alıcılıq qabiliyyətinin səviyyəsinə görə Azərbaycan bu gün MDB məkanında birinci yerdədir. Orta aylıq pensiyanın həcminə görə isə üçüncü yerdədir. Daim irəliyə baxmağa çağırış edən dövlətimizin başçısı İlham Əliyev "Əlbəttə ki, bu, bizi qane edə bilməz. Ancaq mən müqayisə üçün bunu bildirməliyəm. Hər şey müqayisədə ölçülür. Gələcəkdə də minimum əməkhaqqının, minimum pensiyanın artırılması üçün bizdə iradə var və imkanlar buna uyğun olmalıdır" bildirməklə hədəflərə çatmağın yollarını açıqlamışdır. Maliyyə və iqtisadi sahədə tam şəffaflığın təmin edilməsi əsas tələb kimi ortaya qoyulur".

"Sosial xidmətdə şəffaflığın təmin olunması da insan amilinə verilən dəyərdən irəli gəlir" söyləyən V.Rəhimzadə vurğulayıb ki, bu gün hər bir Azərbaycan vətəndaşının dostuna çevrilən ilk DOST mərkəzinin fəaliyyətə başlaması, gələcəkdə onun əhatə dairəsinin daha da genişləndirilməsi üçün səylərin göstərilməsi də deyilənlərin təsdiqidir. Məqsəd şəffaflığı qorumaq, vətəndaş məmnunluğunu, göstərilən xidmətlərin keyfiyyətini yüksəltməkdir. Bu gün Azərbaycan dünyada ilklərə imza atan ölkə kimi tanınır və nüfuz qazanır. Dünyaya səs salan "ASAN xidmət", ABAD, DOST kimi layihələr ölkəmizin yeniliklərə, təkmilləşməyə nə qədər meyilli olduğunu nümayiş etdirir.

"İki sahil" qəzetinin baş redaktoru bildirib ki, dövlətimizin başçısı İlham Əliyevin ötən il ölkəmizdə keçirilən prezident seçkilərində inamlı qələbəsi, andiçmə mərasimində uğurlarımız fonunda irəli sürdüyü hədəflər məhz görülən işlərin aydın mənzərəsini yaradır: "2018-ci ilin prezident seçkilərindən ötən bir ildən artıq dövr ərzində Azərbaycanın ayrı-ayrı sahələrdə əldə etdiyi uğurlara diqqət yetirsək, təkmilləşmənin, yeniləşmənin hansı nəticələrə yol açdığını aydın görərik. Ən əsası dövlətimizin başçısı İlham Əliyev bütün çıxışlarında bu məqamı xüsusi qeyd edir ki, bilik, savad, təhsil hər bir dövlətin tərəqqisində əhəmiyyətli rola malikdir. "Neft kapitalını insan kapitalına çevirək" tezisinin irəli sürülməsi və bu istiqamətdə atılan addımlar da belə bir reallığı ortaya qoyur ki, iqtisadiyyatın elmi əsaslara söykənməsi davamlı inkişafı qaçılmaz edir. Kadr hazırlığı idarəetmə sistemində təkmilləşmənin vacib amillərindən biridir. Dövlətimizin başçısı İlham Əliyevin cari ilin ötən dövründə imzaladığı Fərman və sərəncamlara diqqət yetirsək, bu sənədlərin böyük əksəriyyətinin idarəetmə sisteminin təkmiləşdirilməsinə xidmət etdiyinin şahidi olarıq. Məhz bu uğurumuzun nəticəsidir ki, 2019-cu ilin arxada qalan aylarında ölkəmizdə keçirilən beynəlxalq səviyyəli tədbirlər sırasında Bu Forumun xüsusi əhəmiyyəti ilə diqqət çəkdi. Dünyanın 190-dan çox ölkəsindən 500-dən artıq nümayəndənin qatıldığı BMT-nin Dövlət Xidmətləri Forumunun keçirilməsində məqsəd dövlət idarəçiliyi, dövlət xidmətlərinin göstərilməsinin qabaqcıl modelləri, innovasiyalar və bu sahədə aktual məsələlər üzrə müzakirələrin aparılması, dövlətlərin bu istiqamətlərdə qabaqcıl təcrübələrinin mübadiləsi idi. Azərbaycan qeyd olunan istiqamətlərdə nümunəvi ölkə kimi təqdir olundu".

Vüqar Rəhimzadə sosial müdafiənin gücləndirilməsinə xidmət edən addımlar sırasında özünüməşğulluq proqramının uğurlu icrasını xüsusi qeyd edib. Bildirib ki, müşavirədə bu rəqəm də açıqlandı ki, bu il on mindən çox insan bu proqramla əhatə olunacaq. Ünvanlı sosial yardım alanların sayı artır. Hazırda hər bir ailə orta hesabla 200 manatdan çox yardım alır. Ailə təsərrüfatlarının inkişafına asan dəstəyin göstərilməsi məqsədilə ABAD mərkəzlərinin coğrafiyasının genişləndirilməsi vətəndaş məmnunluğunu daha da artırır, onların öz məhsulları ilə bazarlara çıxışlarına böyük dəstək göstərir.

"Azərbaycanın uğurları beynəlxalq maliyyə qurumlarının hesabatlarında da təqdir edilir" söyləyən V.Rəhimzadə bildirib ki, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Beynəlxalq Valyuta Fondu və digər aparıcı beynəlxalq maliyyə qurumları Azərbaycanın inkişaf tempindən razılıqlarını ifadə edir. Bu proqnozları səsləndirirlər ki, ölkəmizin iştirakçısı və təşəbbüsçüsü olduğu enerji layihələrinin uğurlu icrası nəticəsində dövlət büdcəmizə milyardlarla dollar vəsait daxil olur və bunlar da əhalinin sosial rifahının daha da yaxşılaşmasına, ən əsası yoxsulluq probleminin həllinə xidmət edir. Hazırda yoxsulluğun səviyyəsi 5 faizdir. Azərbaycan Dünya Bankının "Doing Business" hesabatında biznes mühitinə görə dünya miqyasında 25-ci yerdə qərarlaşıb. Son hesabatda 20 ən islahatçı ölkə sırasında yer alıb. Davos Ümumdünya İqtisadi Forumunun yeni hesabatı da ölkəmizin sosial-iqtisadi uğurlarının təqdimatında əhəmiyyətli rola malikdir. Belə ki, həmin sənəddə rəqabətqabiliyyətliliklə bağlı bir çox meyarlar öz əksini tapıb. Ölkədə ictimai-siyasi vəziyyət, iqtisadi islahatlar, sosial siyasət, infrastrukturun yenilənməsi və s. kimi meyarlar təhlil olunur ki, Azərbaycan bu istiqamətlərdə uğurlu nəticələri ilə öndədir. Ən əsası sabitliyin təminatçısı olan xalq-iqtidar birliyi günbəgün daha da möhkəmlənir".

Vüqar Rəhimzadə belə bir ümumiləşdirməni diqqətə çatdırıb ki, dövlətimizin uğurlu siyasəti, gələcəyə hesablanmış inkişaf strategiyası kompleks tədbirlərin həyata keçirilməsini bir tələb kimi ortaya qoyur və bunun da nəticəsində ölkəmizin hərtərəfli inkişafı yüksək səviyyədə təmin olunur: "Bu gün Azərbaycana hansı sahədən baxsaq, tərəqqinin, inkişafın, təkmilləşmənin inkaredilməz faktlar olduğunu görərik. Dövlətimizin başçısı İlham Əliyev müşavirədə gələn ilin büdcəsi ilə əlaqədar da tapşırıqlarını verdi. Bildirdi ki, gələn ilin büdcəsi həm sosialyönümlü, həm də investisiyayönümlü olmalıdır. Qarşıdan gələn 2020-ci ildə ciddi sosial proqramlar icra ediləcək, əhalinin yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün önəmli addımlar atılacaq.

**Ceyhun Rasimoğlu**

# 1991- ci il oktyabrın 18-i müasir Azərbaycan dövlətçiliyi tarixində mühüm səhifələrdən biridir

*Milli Məclisin deputatı, tarix elmləri doktoru Musa Qasımlının yap.org.az-a müsahibəsi*



***- Musa müəllim, məlum olduğu kimi, 18 oktyabr tarixi Azərbaycanda Müstəqillik Günü kimi qeyd olunur. 18 Oktyabr Azərbaycan Respublikasının Müstəqillik Gününün tariximizdə yeri və rolu haqqında nə deyə bilərsiniz?***

- 1991- ci il oktyabrın 18-i müasir Azərbaycan dövlətçiliyi tarixində mühüm səhifələrdən biridir. Hələ SSRİ-nin mövcid olmasına baxmayaraq, xalqımız dövlət müstəqilliyini bərpa etdi. Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi oldu. Buna qədər isə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi altında Naxçıvanda muxtar respublikanın adında “sovet”, “sosialist” ifadələrindən imtina edilmiş, Cümhuriyyət bayrağı dövlət bayrağı olaraq qəbul edilmiş və Bakıya tövsiyə edilmişdi ki, Xalq Cümhuriyyətinin dövlət atributları qəbul edilsin. Bununla da, Naxçıvan müasir müstəqil dövlətimizin təməllərinin atıldığı yer oldu.

***- Müstəqilliyimizin ilk illərində Azərbaycan parçalanmaq təhlükəsi ilə üzüzə qalmışdı. Belə bir şəraitdə Azərbaycanda hakimiyyətə qayıdan Ümummilli Liderimiz Heydər Əliyevin müstəqilliyimizin qorunması istiqamətindəki xidmətləri ilə bağlı fikirlərinizi bilmək istərdik...***

- Dövlət müstəqilliyinin ilk illərində-1991-1993-cü illərdə Azərbaycanda ümumi böhran hökm sürürdü. Daxildə xalq və hakimiyyət, hakimiyyətin qanadları arasında uçurum yaranmışdı. İctimai-siyasi, iqtisadi, mənəvi-psixoloji böhran mövcud idi. Eyni zamanda, ölkəmiz xaricdən dəstəklənən separatçılıqla üz-üzə qalmışdı. Xarici siyasət də böhran içində idi. Ermənistanın hərbi təcavüzü davam edir, torpaqlarımız işğal edilirdi. Xalqın sabaha ümidi yox idi. Ölkəni böhrandan çıxara bilməyən hakimiyyət xalqın istəyi qarşısında geri çəkilərək Ulu Öndər Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Beləliklə, Heydər Əliyev Azərbaycanı dağılmaqdan xilas etdi, separatçılığın kökünü kəsdi, müasir Azərbaycan dövlətinin qurucusu oldu.

Ulu Öndərin misilsiz xidmətləri tariximizə qızıl hərflərlə yazılıb. Çünki Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin əbədi və dönməzliyini təmin edib.

***- Bu gün artıq Azərbaycan güclü bir dövlətdir. Azərbaycanın müasir inkişafı ilə bağlı düşüncələriniz nədən ibarətdir?***

- Bu gün cənab Prezidentimiz İlham Əliyevin liderliyi ilə Azərbaycan Respublikası dünyanın ləyaqətli, sözü və işi bir olan, gözəl perspektivləri olan dövlətidir. Gücünü millətdən alan bu siyasətin alternativi yoxdur.

***- Musa müəllim, yeri gəlmişkən, bir məsələyə də münasibətinizi bilmək istərdik. Bugünlərdə Bakı şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü keçirildi. Bu görüşün əhəmiyyəti nədən ibarətdir?***

- Türk dünyasının müstəqil dövlətlərinin bir araya gəlməsi dövlətlərimizin gücünə güc qatır, beynəlxalq mövqelərimizi möhkəmləndirir. Bu birliyin böyük potensialı və yaxşı gələcəyi vardır.

# “Prezident hər bir məmurdan vicdanla, ləyaqətlə xalqa xidmət tələb edir”

“Media islahatlara mane olan deyil, onu təbliğ edən institut, Prezidentin ən yaxın ictimai dəstəkçisidir. Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında keçirilən iqtisadi müşavirədə dövlətimizin başçısı ölkəmizin inkişafı ilə bağlı çox mühüm məsələləri diqqətə çatdırdı”. Bunu SİA-ya açıqlamasında “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.

Millət vəkili bildirib ki, Prezident ölkəmizdə həyata keçirilən və bütün sahələri əhatə edən ardıcıl islahatların uğurlu nəticələr verdiyini bildirərək Azərbaycanın “Doing Business” hesabatında 20 ən islahatçı ölkələr sırasında yer aldığını xüsusi vurğuladı. Dövlət başçısı həmçinin ölkəmizin daha yüksək inkişafına mane olan məsələləri, nöqsanları diqqətə çatdıraraq müvafiq tapşırıqlar verdi. Müşavirədə Prezident qeyd etdi ki, bu gün iqtidarda olan bəziləri aparılan islahatlara qarşı çıxış edirlər. Bu islahatlar həmin şəxslərin maraqlarına toxunduğu üçün onlar hər vəchlə ümumi işə, komandanın uğurlu fəaliyyətinə əngəl törətmək istəyirlər. Bu zaman isə ən müxtəlif üsullara əl atırlar ki, bunlardan biri də cənab Prezident tərəfindən yüksək etimad göstərilərək vəzifəyə təyin olunan və ötən müddət ərzində effektiv, sədaqətlə fəaliyyət göstərən yenilikçi, islahatlara meyilli və bu islahatları müvəffəqiyyətlə həyata keçirmək potensialına və iradəsinə malik kadrlara qarşı aparılan qarayaxma, şantaj kampaniyasıdır. Əlbəttə, eyni komandada təmsil olunan bir məmurun digərinə qarşı bu cür davranışı qətiyyən yolverilməzdir. Vəzifəsindən asılı olmayaraq, hər bir məmur Prezident tərəfindən onun qarşısına qoyulan tapşırıqları yerinə yetirmək məcburiyyətindədir. Prezident isə hər bir məmurdan vicdanla, ləyaqətlə xalqa xidmət tələb edir”.



H.Babaoğlu bildirib ki, sözügedən şəxslərin cənab Prezidentin xəbərdarlığından düzgün nəticə çıxararaq özlərinə çəki-düzən verəcəklərinə, bu cür qəbuledilməz davranışlardan əl çəkəcəklərinə ümid edirik: “Çünki Prezidentin də vurğuladığı kimi islahatlara alternativ yoxdur və siyasi hakimiyyətdə bu islahatları ən yüksək səviyyədə davam etdirmək üçün güclü iradə mövcuddur. Heç kim, heç bir qüvvə bu prosesə mane ola bilməyəcək. Şübhə yoxdur ki, Azərbaycan mediasının mütləq əksəriyyəti də bu islahatların daha uğurlu nəticələr verməsi, geniş auditoriyada təbliğ olunması istiqamətində üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməyə, prosesin informasiya,ideoloji bazası rolunu oynamağa çalışır. Tam qətiyyətlə deyə bilərik ki, Azərbaycan mediası ictimai institut kimi prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən və Azərbaycanın uğurlu inkişafını təmin edən islahataları dəstəkləyir. Təsadüfi deyil ki, prezident İlham Əliyev də Azərbaycan mediasının fəaliyyətinə həmişə yüksək qiymət verib və mediamızın sərbəst fəaliyyəti üçün münbit şərait yaradılıb. Dövlət başçısı dəfələrlə vurğulayıb ki, O Özü də ölkəmizdə baş verən bir çox məsələlərdən məhz Azərbaycan mətbuatı vasitəsilə xəbər tutur. Və dərhal reaksiya verərək lazımi addımları atır. Prezident İlham Əliyevin “Jurnalistlər bəlkə də özləri də bilmədən mənim köməkçilərimdir” fikri Azərbaycan mətbuatının fəaliyyətinə göstərilən etimadın, jurnalistlərin əməyinə verilən yüksək qiymətin ifadəsidir. Dövlət başçısı mütəmadi olaraq ictimai fəallığın, vətəndaş təşəbbüskarlığının əhəmiyyətini qeyd edərək bu zaman yenə də mediya orqanlarının roluna diqqət çəkib. Bizim üçün təsadüf doğuran hal odur ki, bəzi “jurnalistlər” yaradılan əlverişli şəraitdən adekvat yararlanmaq əvəzinə, mediya adına heç də başucalığı gətirməyən davranışlara yol verirlər”.

Sonda isə H.Babaoğlu vurğulayıb ki, dövlət başçısı İlham Əliyevin müşavirədə də bildirdiyi kimi, bu gün iqtidarda olan bəzilərinin islahatlara, islahatçı kadrlara qarşı həyata keçirdiyi kampaniyalar bir çox hallarda media orqanları vasitəsilə aparılır və bəzi mediya qurumları islahatlara qarşı çıxış edən məmurların əlində alət rolunu oynayırlar. Görünür, hələ də bəziləri köhnə vərdişlərindən əl çəkə, mediada bu cür çirkin fəaliyyət üsulunu davam etdirmək arzusunu cilovlaya bilmirlər. Əlbəttə, media vasitəsinin, mətbuat orqanının bu cür çirkin şantaj kampaniyasında yer alması, ona vasitəsi olması qətiyyən yol verilməzdir. Mətbuat kimlərinsə şəxsi ambisiyalarını həyata keçirmək üçün mübarizə meydanına çevrilməməlidir. Bu, hər şeydən əvvəl mənəvi, əxlaqi baxımdan doğru deyil. Digər yandan isə KİV-in hamı tərəfindən qəbul olunmuş davranış prinsiplərinin kobud sürətdə pozulması deməkdir. Düşünürəm ki, sayları məhdud olan və fəaliyyət siferası daha da daralmış olan bu qrupun qanunazidd fəaliyyətinə qarşı elə ilk növbədə Azərbaycanda klassik mediya ənənələrini əxz etmiş, dövlət və millət maraqlarını ifadə edən, eyni zamanda ölkəmizin inkişafını uğurlu islhataların həyata keçirilməsində görən mütərəqqi Azərbaycan mediası öz mövqeyini ortaya qoyacaq.

***Aysel Məmmədova***

## Azərbaycandan İsrailə ixracın dəyəri 67 milyon dollaradək artıb

Dövlət Gömrük Komitəsindən bildirilib ki, hesabat dövründə Azərbaycandan İsrailə ixrac edilən məhsulların dəyəri 1 milyard 67 milyon 679 min dollar təşkil edib. İxracın dəyəri ötən ilin eyni aylarına nisbətən 66 milyon 888 min dollar artıb. Belə ki, keçən ilin 9 ayında ölkəmizdən İsrailə 1 milyard 791 min dollarlıq məhsul ixrac edilib. Bu ilin 9 ayında Azərbaycanın İsraildən idxal etdiyi məhsulların dəyəri isə 38 milyon 232 min dollar olub. Qeyd edək ki, İsrail Azərbaycanın ticarət dövriyyəsi apardığı əsas ölkələrin siyahısında 7-ci pillədə qərarlaşıb.

## Çay ixracı artıb

Doqquz ayda ölkədən 1058 ton çay ixrac edilib. Dövlət Gömrük Komitəsinin məlumatında deyilir ki, ixrac edilən çayın dəyəri 6 milyon 855 min ABŞ dolları olub. Xatırladaq ki, ötən ilin yanvar-sentyabr aylarında ölkədən dəyəri 6 milyon 770 min dollar olmaqla 989 ton çay göndərilib.

## Doqquz ayda dəmir yolu ilə 2,5 milyon sərnişin daşınıb

Cari ilin yanvar-sentyabr aylarında dəmir yolu nəqliyyatı ilə 2,5 milyon sərnişin daşınıb. Dövlət Statistika Komitəsindən bildirilib ki, 2018-ci ilin eyni dövrü ilə müqayisədə sərnişin daşınmasında 27,2 faiz artım olub. Həmçinin dəmir yolu nəqliyyatı ilə yük daşınmasında orta hesabla sutkada 291 vaqon yüklənib, 417 vaqon isə boşaldılıb. Sutka ərzində dəmir yolunun Şimal istiqaməti üzrə 11,6 min ton, Qərb istiqaməti üzrə 4,3 min ton, Cənub istiqaməti üzrə isə 0,8 min ton yüklənmə işi yerinə yetirilib.

# "Azərbaycan mediası hazırda bölgə üçün ən qabaqcıl nümunələrdən birinə çevrilib"

***Tarixi yol keçən Azərbaycan mətbuatı müstəqillik dövründə tam azad mətbuat kimi fəaliyyət göstərməyə başlayıb. Təbii ki, azad mətbuatın fəaliyyət göstərməsi demokratiyanın əsas əlamətlərindəndir. Azərbaycanda söz azadlığı, vicdan azadlığı, sərbəst toplaşma azadlığı təmin olunur. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, demokratik inkişafı azad mətbuatsız təsəvvür etmək mümkün deyil: "Azərbaycanda gələcəkdə də, bütün azadlıqların təmin olunması siyasəti davam etdiriləcək. Bu, bizim üçün prioritet məsələdir və ölkəmiz, məhz bu yolla uğurla inkişaf edə bilər".***



Bu gün dünyanın sürətlə inkişaf edən ölkələri sırasında yeri olan Azərbaycanın uğurlarının dünyaya çatdırılmasında milli mətbuatın rolu əvəzsizdir. Ölkəmizdə demokratik proseslərin inkişafı, milli maraqların müdafiə edilməsi sahəsində mətbuatın üzərinə böyük məsuliyyət düşür. Bu gün ölkəmizdə media azadlığı təmin olunub, internet media inkişaf edib, jurnalistlərin sərbəst fəaliyyəti üçün lazımi şəraitin yaradılıb. Ümummilli Lider Heydər Əliyevin söz və media azadlığının təmin olunması istiqamətində həyata keçirdiyi siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün ölkəmizdə hərtərəfli dövlət qayğısı ilə əhatə olunan peşəkar media fəaliyyətdədir. Azərbaycanda yüzlərlə qəzet, jurnal, onlarla televiziya və radio kanalı var.

### "SOSİAL ŞƏBƏKƏLƏRİN VƏ İNTERNETİN YARATDIĞI İMKANLAR BEYNƏLXALQ VƏ REGİON MEDİALARI İLƏ ƏLAQƏLƏRİMİZİN İNTENSİVLƏŞMƏSİNƏ ŞƏRAİT YARADIR..."

Qlobal Jurnalistlər Şurasının və Azərbaycan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə keçirilən "Qloballaşma dövründə medianın inkişaf trendləri: Risklər və imkanlar" mövzusunda Bakı Beynəlxalq Media Konfransında çıxış edən Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun qeyd etdiyi kimi, Azərbaycan bu gün bölgənin və dünyanın ən inkişaf etmiş ölkələrindən biridir: "Biz neftdən gələn gəlirləri digər sahələrin inkişafına yönəldərək, müasir infrastruktur yaratmışıq. Neft gəlirlərindən istifadə edərək, Azərbaycan mediası üçün də yaxşı imkanlar yaratmışıq. Azərbaycan mediası hazırda bölgə üçün ən qabaqcıl nümunələrdən birinə çevrilib. Bu gün Azərbaycanda media azad şəkildə inkişaf edir. İnternet tam azaddır. Sosial şəbəkələrin və internetin yaratdığı imkanlar beynəlxalq və region mediaları ilə əlaqələrimizin intensivləşməsinə şərait yaradır və biz bundan bəhrələnirik. Dövlətimiz azad mediaya dəstək verir. KİV-lərə qrantlar verilir, jurnalistlərin problemlərinin həllinə yaxından kömək göstərilir, onların mənzil-məişət şəraiti yaxşılaşdırılır".

Əminliklə qeyd edə bilərik ki, bu gün kütləvi informasiya vasitələri ilə bağlı qanunvericilik bazası daha da zənginləşdirilib, mediaya dövlət dəstəyi sistemli şəkil alıb və jurnalistlərin sosial-məişət şəraiti yaxşılaşdırılıb. Belə qayğı ilə əhatə olunan Azərbaycan mətbuatı qloballaşan dünyada dəyərlərimizi, milli maraqlarımızın və mənafelərimizin qorunmasında daha məsuliyyətlidir. Qloballaşan dünyada baş verən hadisə və proseslərə mətbuatın operativ reaksiya verməsi önəmlidir. Azərbaycan Dağlıq Qarabağ münaqişəsində, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında mətbuatın rolu önəmlidir. Erməni lobbisinin Azərbaycan qarşı qərəzli fəaliyyətdə olduğu bir zamanda, Azərbaycan həqiqətləri olduğu kimi dünyaya çatdırılmalı, erməni təbliğatı faktlar əsasında ifşa olunmalıdır. Anti-Azərbaycan kampaniyasına qarşı mübarizədə bütün güc və iradələr birləşməli, mətbuatımız bütün faktları ortaya çıxarmalıdır. Prezidentin köməkçisinin qeyd etdiyi kimi, müasir dünyamızda dünyada haqqa, ədalətə qarşı olan dövlətlər də var: "Onların qurduğu rejimlər sülhü təhdid edir, terror aktları törədərək, xalqların dinc həyatını pozur, insanları yurd-yuvasından didərgin salır."

### "MÜASİR DÜNYANIN ƏDALƏTSİZLİKLƏRİ FONUNDA BU İŞĞAL DAVAM EDİR"

Əli Həsənov onu da bildirib ki, Ermənistan Azərbaycan torpaqlarının 20 faizini işğal edib, 1 milyondan çox azərbaycanlını yurd-yuvasından didərgin salıb: "Bu gün onlar qaçqın və məcburi köçkün həyatı yaşayırlar. Biz, o insanlar üçün haqq, ədalət axtarırıq. Beynəlxalq təşkilatların qəbul etdiyi qərarlar isə, ikili standartlar səbəbindən, həyata keçmir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində torpaqlarımızın qeyd-şərtsiz azad edilməsi, didərgin salınmış insanların doğma yurdlarına qayıtması üçün şəraitin yaradılması tələb olunur. Ermənistan isə, 20 ildən çoxdur ki, bu qətnamələri yerinə yetirmir. Təəssüf ki, müasir dünyanın ədalətsizlikləri fonunda bu işğal davam edir".

### "ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN "BİR MİLLƏT, İKİ DÖVLƏT" FORMULU BU GÜN BİZİM BÜTÜN SAHƏLƏR ÜZRƏ BİRLİYİMİZƏ XİDMƏT EDİR"

Konfransda Əli Həsənov Türkiyənin də haqsızlıqlarla üzləşdiyini bildirərək, qeyd edib ki, 100 il bundan əvvəl baş vermiş hadisələri qardaş ölkənin adına yazaraq, onları soyqırımı törətməkdə ittiham edirlər: "Lakin erməni terrorist qrupları həm türklərə, həm də azərbaycanlılara qarşı dəfələrlə soyqırımı aktları törədiblər. Türk diplomatlarına qarşı müxtəlif vaxtlarda terror hücumları həyata keçirilib. Həmçinin, ötən əsrin ortalarınadək azərbaycanlılara qarşı üç dəfə soyqırımı törədilib. Bu soyqırımları nəticəsində, ümumilikdə, 100 minə yaxın, Dağlıq Qarabağ münaqişəsi zamanı isə, 30 minədək azərbaycanlı qətlə yetirilib. Bütün bunların səbəbkarı erməni millətçiləridir".

Əli Həsənov onu da bildirib ki, Azərbaycan mediasının imkanlarından istifadə edərək həm ölkəmizin, həm də Türkiyənin problemlərini dünyaya çatdırmağa çalışırıq: "Diasporumuzu və mediamızı birləşdirməli və haqsızlıqlara qarşı birgə mübarizə aparmalıyıq. Azərbaycan Türkiyənin "Sülh çeşməsi" əməliyyatına dəstək verir. Haqq işində Azərbaycan Türkiyənin yanındadır. Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" formulu bu gün bizim bütün sahələr üzrə birliyimizə xidmət edir".

Azərbaycan dünya media məkanına müasir, inkişafda olan, açıq, tolerant ölkə kimi təqdim edilir və bu təbliğat daha da gücləndirilir. "Bilirsiniz ki, biz Azərbaycan mediasının həm regional, həm də qlobal media trendlərini inkişaf etdirdiyimiz kimi, bizə aid olan bəzi faktların, informasiyanın, həqiqətlərin regionumuzda və dünyada yayılmasında, gördüyümüz işlər haqqında hər kəsin məlumatlanmasında maraqlıyıq" deyən Əli Həsənov Azərbaycanda müxtəlif xalqların və dinlərin nümayəndələrinin multikultural cəmiyyətdə yaşadıqlarını da vurğulayıb. Qeyd edib ki, azərbaycançılıq məfkurəsi ölkəmizdə yaşayan bütün xalqların və dinlərin nümayəndələrinin birliyini, vahid amal uğrunda mübarizəsini, dövlətin onların bütün məsələlərdə yanında olmasını hədəfləyən ideologiyadır".

Azərbaycan artıq özünü, öz müstəqil dövlətçilik tarixini dünyaya təqdim edib. Paytaxt Bakı artıq dünyanın, Qərb ölkələrinin dialoq mərkəzinə çevrilib. Dövlət başçısının rəhbərliyi altında əldə olunmuş uğurların qorunmasında, Azərbaycanın haqlı mövqeyinin müdafiəsində milli mətbuatımız öz səy və qüvvəsini əsirgəməməlidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# YAP Gəncə şəhər təşkilatında ərazi ilk partiya təşkilatlarının sədrləri ilə görüş keçirilib

***Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatında ərazi ilk partiya təşkilatlarının sədrləri ilə görüş keçirilib. Görüşdə bir sıra məsələlər müzakirə olunub və fikir mübadiləsi aparılıb.***



Görüşü YAP Gəncə şəhər təşkilatının sədri, Milli Məclisin deputatı Naqif Həmzəyev açaraq, görüşün çox əlamətdar bir günə - oktyabrın 18-i Azərbaycanın Müstəqillik Gününə təsadüf etdiyini vurğulayıb. Bildirib ki, XX yüzilliyin sonlarında sovetlər birliyinin süquta uğraması ilə yaranan əlverişli tarixi şərait və taleyin bəxş etdiyi imkan nəticəsində, Azərbaycan xalqı XX yüzillikdə ikinci dəfə müstəqillik bayrağını qaldırdı. Bu, xalqımızın siyasi tarixində XX əsrdəki ikinci parlaq qələbəsi idi.

AMEA Gəncə bölməsinin akademik katibi Fuad Əliyev çıxışında tarix dəfələrlə sübut edib ki, müstəqilliyi qoruyub- saxlamaq onu qazanmaqdan qat-qat çətindir: Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, Azərbaycan özünün əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin qayıdışından sonra əldə edir. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Heydər Əliyev özü ilə bərabər Azərbaycan siyasi müdriklik gətirdi.

Gəncə şəhər Təhsil İdarəsinin müdiri Zakir Hüseynov bildirib ki, məhz Milli Liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və mənəvi- psixoloji gərginliyi aradan qaldırıb.

Daha sonra Naqif Həmzəyev çıxışında qarşıdan gələn bələdiyyə seçkilərinə toxunub, seçkilərin tarixindən və yüksək əhəmiyyətindən danışıb. Seçkilərlə əlaqədar ilk partiya təşkilatlarında uçotdəqiqləşdirmə işlərinin mütəmadi və operativ olaraq aparılmasının vacibliyini qeyd edən millət vəkili partiya üzvləri ilə daim ünsiyyətin saxlanılmasının və onlarla birgə layihələrin, tədbirlərin keçirilməsinin vacibliyindən danışıb.

Millət vəkili Naqif Həmzəyev Ulu Öndər Heydər Əliyevin "Azərbaycanın müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir" sözləri ilə tədbirə yekun vurub.

***RÖVŞƏN NURƏDDİNOĞLU***

# YAP Laçın rayon təşkilatında "Qarabağ Azərbaycandır və nida işarəsi" adlı tədbir keçirilib

***YAP Laçın rayon təşkilatı, rayon gənclər və idman idarəsi və Laçın rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə "Qarabağ Azərbaycandır və nida işarəsi" adlı tədbir keçirilib.***




Partiyanın fəal gənclərinin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə YAP Laçın rayon təşkilatının qərargahında keçirilən tədbiri Laçın rayon icra hakimiyyəti başçısının müavini, rayon təşkilatının sədri İlqar İlyasov dövlət müstəqilliyinin 28-ci ildönümü münasibəti ilə tədbir iştirakçılarını təbrik edərək Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul olunmasının ildönümünün hər bir azərbaycanlının böyük fəxrlə qeyd etdiyi tarixi hadisə olduğunu deyib.

İ.İlyasov bildirib ki, Azərbaycan xalqının ikinci dəfə müstəqilliyini elan etməsi bir əsrdə xalqımızın siyasi tarixində yaşadığı ikinci ən parlaq qələbəsi idi: "Müstəqilliyimizin ilk illərində xalqımız dünyaya bəxş etdiyi dahi insan, böyük vətənpərvər şəxsiyyət Heydər Əliyev kimi görkəmli bir siyasətçinin siyasi hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və buna nail oldu. "Müstəqilliyimiz dönməzdir, əbədidir" deyən Ulu Öndər Heydər Əliyevin Azərbaycanın qüdrətli dövlətə çevrilməsinə yönəlmiş müdrik siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan gündən-günə daha da güclənir, qüdrətlənir".

İ.İlyasov ölkə Prezidenti İlham Əliyevin oktyabr ayının 3-də Rusiyanın Soçi şəhərində dünyanın məşhur "beyin mərkəzləri"ndən biri olan "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasındakı qətiyyətli çıxışının tarixi əhəmiyyətindən danışdığını bildirmiş, "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatı ilə Ermənistanın baş nazirinin Qarabağla bağlı sərsəm bəyanatlarını alt-üst etdi: "Həmçinin, Aşqabad görüşündə isə, Ermənistandakı faşizm rejimini beynəlxalq aləmdə ifşa etdi".

Rayon təşkilatının sədri, onu da vurğulayıb ki, ölkə Prezidenti İlham Əliyevin tarixi çıxışları respublika ictimaiyyəti kimi, laçınlı köçkünlər tərəfindən də rəğbətlə qarşılanaraq, onlarda böyük ruh yüksəkliyi yaradır.

Mövzu ətrafında çıxış edən rayon gəncləri də dövlətimizin inkişafı, xalqımızın rifahı, ərazi bütövlüyümüz uğrunda ölkə başçısının qətiyyətli addımlarını dəstəklədiklərini və Onun ətrafında sıx birləşdiklərini bildiriblər.

**R.KAMALQIZI**



# "Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir"

## *YAP Xocavənd rayon təşkilatı gənclər birliyi, rayon gənclər və idman idarəsinin təşkilatçılığı ilə müstəqillik günü qeyd olunub*

***Dünən YAP Xocavənd rayon təşkilatı gənclər birliyi, rayon gənclər və idman idarəsi Qaradağlı kənd tam orta məktəbdə 18 Oktyabr Dövlət Müstəqilliyi Gününə həsr olunmuş "Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir" mövzusunda toplantı keçirib.***

Tədbirdə çıxış edənlər müstəqil Azərbaycanın 28 il ərzində keçdiyi tarixi yoldan danışaraq, vurğulayıblar ki, "Müstəqilliyimiz dönməzdir, əbədidir" deyən Ulu Öndər Heydər Əliyevin Azərbaycanın qüdrətli dövlətə çevrilməsinə yönəlmiş müdrik siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan gündən-günə daha da güclənir və qüdrətlənir. Son illərdə Azərbaycanın iqtisadiyyatında, hərbi quruculuğunda, elm, mədəniyyət, səhiyyə, təhsil, idman, insanların sosial müdafiəsi sahələrində böyük uğurlar əldə edilib.

**R.HÜSEYNOVA**

# YAP Binəqədi rayon təşkilatının ərazi ilk partiya təşkilatında hesabat-seçki yığıncağı keçirildi



Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının 6-cı mikrorayon, 3215-ci məhəllə, 1410-cu keçid ünvanlı ərazi ilk partiya təşkilatında hesabat-seçki yığıncağı keçirildi.

İclası ərazi ilk partiya təşkilatının sədri Dilbər Səmədova açaraq, gündəlikdə duran məsələlər barədə məlumat verdi. Hesabat məruzəsi ilə çıxış edərək, təşkilat tərəfindən görülən işlər haqqında ətraflı danışdı. Hesabat məruzəsi səsə qoyularaq qəbul edildi və ərazi ilk partiya təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş hesab edildi.

Daha sonra gündəlikdə duran digər məsələlərlə bağlı müzakirələr aparıldı. Ərazi ilk partiya təşkilatının 7 nəfərdən ibarət idarə heyəti, Fəridə Yunusova sədri və Dilbər Səmədova, Güllü Fətəliyeva sədr müavinləri seçildilər. Fəridə Yunusova çıxış edərək, ona göstərilən etimada görə təşəkkür etdi və bu etimadı doğruldacağını bildirdi.

İclasda çıxış edən Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov Yeni Azərbaycan Partiyasının Ümummilli Lider Heydər Əliyev tərəfindən 1992-ci il noyabrın 21-də ölkəmizin ağır sınaqlara məruz qaldığı dövrdə yaradıldığını qeyd etdi və keçdiyi keşməkeşli tarixdən danışdı. YAP-ın Cənubi Qafqazın ən böyük partiyası olduğunu bildirdi. Son vaxtlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin birbaşa təşəbbüsü və rəhbərliyi altında ölkəmizdə aparılan sosial, iqtisadi və digər sahələri əhatə edən islahatlardan danışdı. Bu uğurların əldə edilməsində və təbliğində Yeni Azərbaycan Partiyasının rolunu da vurğuladı.

**Zümrüd BAYRAMOVA**

# Gənc yazar Hafiz Hacxalılın yeni kitabı işıq üzü görüb

Gənc yazar, şair, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin publisistika bölməsinin rəisi polis mayoru Hafiz Hacxalılın daha bir yeni kitabı işıq üzü görüb. Daima vətənə məhəbbət, el-obaya sevgi dolu şeirləri ilə oxucuların görüşünə gələn gənc şair, bu dəfə də ənənəsinə sadiq qalıb. Gənc şairin yeni "Xatirən var" kitabında şeirlər və publisistik məqalələr yer alıb. Bu yeni kitabda həmçinin məhəbbət, vətən həsrəti, el-oba həsrəti daha çox yer alıb. Gənc şairin daima el-obaya bağlılığı tərənnüm edən şeirləri, vətən həsrəti ilə alışıb-yanan misraları bu kitabda da öz yerini alıb.




**"Həsrətin dili yox, dərdin amanı,**
**Mən necə yaşayım bu qərib ömrü.**
**Qırılıb ümidim, itib gümanım,**
**Özümdən uzağa atmaq istərəm,**
**Bir sapand daşına döndərib ömrü."**

Gənc şairin bədii və publisistik yaradıcılığına bələd olduqca onun daima həsrətində olduğu, doğma yurddan, gecə-gündüz yaddaşında silinməz izlər qoymuş sevdiyi torpaqlardan ayrı qaldıqca çəkdiyi iztirablardan yazdığı şeirlərində daha çox xəbər tutursan. Hər misrasında vətən həsrəti, dədə Şəmşirin sazından qaynaqlanan torpaq sevgisi H.Hacxalılın yaradıcılığında daima ön sıradadır. Gözəl misralar müəllifi olan gən şairin "Xatirən var" kitabı öz ideyasına, məzmununa görə milli vətənpərvərlik ruhuna doğmadır. Polis zabiti olan gənc şair, həm qanunçuluğu qoruyur, həm də ədəbiyyatımızın, mənəvi dəyərlərimizin, saz-söz sənətimizin keşiyində dayanır. Yolun uğurlu olsun şair!.

# Mübariz Əhmədoğlu: "Gürcüstan baş nazirlərinin ən yaxşı tərcüməçisi Paşinyan imiş"

***"Gürcüstanın baş naziri G.Qaxariyanın Ermənistana səfərini müstəqillik dövründə Ermənistan-Gürcüstan münasibətləri üçün ən tarixi hadisələrdən biri saymaq olar". Bu fikirləri Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri, politoloq Mübariz Əhmədoğlu bildirib. M.Əhmədoğlu qeyd edib ki, Qaxariya Yerevanda çox cəsarətli bəyanatlar verdi və məsələ də burasındadır ki, bəyanatların dəyəri onun Ermənistan mətbuatında işıqlandırılması və N.Paşinyanın bütün bu məsələlərə münasibətidir.***



Politoloq, onu da vurğulayıb ki, G.Qaxariyanın fikrincə, Cənubi Qafqaz regionu üçün, ilk növbədə, sülh və iqtisadi çiçəklənmə lazımdır: "Başqa sözlə, sülh və iqtisadi çiçəklənmə Qaxariya üçün regional miqyasda bir-biri ilə əlaqəli məsələdir və güclü iqtisadi çiçəklənmə üçün, ilk növbədə, sülh lazımdır. Qaxariya N.Paşinyanla birlikdə konstatasiya ediblər ki, regiona sülh, məhz ona görə lazımdır ki, bütün bundan sonrakı diqqətlər iqtisadiyyat üzərində cəmlənsin və vətəndaşlara ləyaqətli yaşamaq imkanı yaradılsın".

M.Əhmədoğlu G.Qaxariyanın ərazi bütövlüyü prinsipinin Gürcüstan üçün mühüm məsələ olduğunu bildirib: "N.Paşinyanla birlikdə səsləndirilən bu fikirlər və Paşinyanın verdiyi reaksiya kifayət qədər diqqəti çəkir: Paşinyan Tbilisini kənar faktorların təsirində olmayan dialoqa dəvət etdi. İl yarımlıq hakimiyyəti dövründə Paşinyan Gürcüstanın 3 baş naziri ilə təmasda olub. Paşinyan, Tbilisiyə təsir edən kənar faktorlar dedikdə, Bakını nəzərdə tutur. Rəsmi Yerevan Gürcüstanın səsləndirdiyi bəyanatları, əslində, əyri güzgüdə təqdim edirdi. N.Paşinyan, görünür, rəsmi Tbilisinin dilini özünəməxsus yaxşı bilir deyə, çox yaxşı da tərcüməçilik etdi. Məhz N.Paşinyanın hesabına Gürcüstanın Ermənistan istiqamətində mövqeyi tamamilə üzə çıxdı".

M.Əhmədoğlunun sözlərinə görə, Ermənistan Gürcüstanda separatizm mövzusunda gərginlik yaratmağa daim tam hazır vəziyyətdədir: "Yaxınlarda bəlli oldu ki, Ermənistandan olan ermənilər Cavaxetiyada forum keçirib, region ermənilərinin birləşməsinə şərait yaratmaq məqsədilə pul toplayırdılar. Bəzi erməni jurnalistləri separatizm ideyalarını qızışdırmaq məqsədilə Gürcüstan ərazisinə səfər etmək istədilər, gürcü sərhədçiləri bunun qarşısını aldı. Bəlli oldu ki, Ermənistanın idarəçiliyi ilə Cavaxetiya erməniləri Gürcüstanın ən əsas strategiyasının-Avroatlantik məkana inteqrasiyasının əleyhinə imiş.

Yaxın tarixdən də bəllidir ki, Cavaxetiya erməni separatizminin əsas mərkəzlərindən biridir. Hətta Ermənistanın istəyi ilə bir qrup ABŞ ermənipərəst konqresmeni uzun müddət Gürcüstanın Cavaxetiya regionuna müstəqil dövlət kimi ABŞ dövlət büdcəsindən vəsait ayırmağa nail oldu".

M.Əhmədoğlu, onu da qeyd edib ki, həm eks-prezident Serj Sarkisyanın dövründə Tbilisi Ermənistana bir-birinə hücum etməmək haqqında müqavilə imzalamağı təklif etmişdi, Yerevan isə, bunu rədd etmişdi: "Gürcüstanın keçmiş baş naziri Q.Kvirikaşvili Paşinyanın qarşısında Ermənistanla Gürcüstan arasında təhlükəsizlik müqaviləsi imzalamaq məsələsini gündəliyə gətirdi. N.Paşinyan imtina etdi. G.Qaxariyanın Ermənistana səfərinə, bütün bunların hamısının məcmusuna cavab kimi yanaşmaq, daha düzgündür. Bir də Qaxariya Gürcüstanın iqtisadi problemlərini və onun konseptual səbəblərini çox gözəl başa düşür. Qaxariya başa düşür ki, Gürcüstan üçün, ən azı, 2 gərginlik mənbəyi var. Bunlardan biri Gürcüstandan qopduğunu elan etmiş separatçı bölgələrlə əlaqəli məsələlər, digəri Cavaxetiya erməniləri və ona dəstək verən Ermənistan tərəfindən gələn təhlükədir. Ona görə də, donor konfranslarda Gürcüstana vəsait vəd verilsə də, sonradan bunlar, sadəcə, vəd olaraq qalır.

İndi G.Qaxariya bütün bunların səbəbini araşdırır. Görünür, Qaxariya 1 və ya 2 illik baş nazir olmaq istəmir. G.Qaxariyanın atdığı addımlar göstərir ki, o, Gürcüstanın iqtisadiyyatı, dirçəlməsi ilə ciddi məşğuldur və özünü bu istiqamətdə yeganə şanslı sayır. Ona görə Qaxariya Ermənistanda olarkən, belə qətiyyətli addımlar atdı və bəyanatlar verdi".

***R.HÜSEYNOVA***

## Söz azadlığı hüququnu, ilk növbədə, Paşinyan özü pozur



"Kentron" telekanalında Ermənistan Konstitusiya Məhkəməsi rəhbərinin bacısının televiziya şousu bağlanıb. Bu barədə "Ayeli" mətbuat klubunun rəhbəri, teleaparıcı Anjela Tovmasyan "Kentron" telekanalındakı fəaliyyətinə xitam verildiyini açıqlayarkən özü deyib.

Məlumata görə, teleaparıcı deyib ki, "Kentron" telekanalındakı ona məxsus olan "Güzgü qarşısında" müəllif proqramı bir neçə həftədir ondan asılı olmayan səbəblərdən yayımlanmır.

"Bunun niyə baş verdiyini şərh etmək və qiymətləndirmək istəmirəm. Düşünürəm ki, hər şey aydındır. Elə oldu ki, ailəmiz Ermənistan hakimiyyətinin "sevgi və həmrəylik" hədəfinə çevrilib, amma bunu yalnız şikayət deyil, bir fakt olaraq bildirirəm. "Kentron" TV kanalındakı fəaliyyətimə xitam verilir. "Güzgü qarşısında" verilişinin sadiq izləyicilərinə minnətdaram. Həmçinin, birlikdə uzun müddətli iş üçün "Kentron" telekanalının komandasına minnətdaram" deyə A.Tovmasyan bildirib. Anjela Tovmasyan özünün "Facebook" səhifəsində də bu barədə yazıb və yazıda qeyd edib ki, hər bir bağlanan səhifənin yeni bir səhifə açmaq üçün ilkin şərt olduğuna əminəm. O öz səhifəsində vurğulayıb ki, deyə biləcək və edə biləcək bir şey varsa, həmişə bunu etmək üçün bir yol tapılar.

Qeyd edək ki, Anjela Tovmasyan Konstitusiya Məhkəməsinin sədri Qrayr Tovmasyanın bacısıdır və bu da, ondan xəbər verir ki, Paşinyan hakimiyyəti Anjelanın Qrayr Tovmasyanın bacısı olması səbəbindən, teleaparıcının proqramını dayandırıb. Nəzərə alsaq ki, hazırda Ermənistan, şəxsən Paşinyan hakimiyyəti Qrayr Tovmasyanı, hədəf olaraq seçib və onunla mübarizə aparır, bəlli olur ki, həqiqətən də, teleaparıcının proqramının dayandırılması bu mübarizə səbəbindəndir. Teleaparıya, nəticədə, söz azadlığına qarşı Paşinyanın hücumu göz qabağındadır və erməni baş nazir vəd etdiyi söz azadlığı hüququnu, ilk növbədə, özü pozur. Faktlar, ələlxüsus, bu fakt özü, erməni baş nazirinin - Nikol Paşinyanın söz azadlığı, demokratiya barədə dediklərinin yalan olduğunu təsdiqləyir.

***İNAM***

# Ermənistan mətbuatı nə yazır...

## *Kiro Manoyan: "Ermənistan və "DQR" arasında mövcud olan qarşıdurma cəmiyyətdə parçalanma yaradıb"*

***"Daşnaksyutun"un siyasi məsələlər üzrə təmsilçisi, eləcə də, "Hay Dat" ofisinin rəhbəri Kiro Manoyan jurnalistlərlə söhbətində bildirib ki, Ermənistan və "DQR" arasında mövcud olan qarşıdurma cəmiyyətdə parçalanma yaradıb. Onun bu sözlərini "aysor.am" saytı yazıb.***




"İndi ya yumurtanın, ya da toyuğun - hansının tez yaranması barədə müzakirə aparmaq istəmirəm, kimin başlatdığı vacib deyil" deyə bildirən Manoyan Vitali Balasanyanın da bəyanatına münasibətini açıqlayaraq, qeyd edib ki, bu, iki "respublika" arasındakı ziddiyyətlərə və ağır nəticələrə gətirib-çıxaracaq.

Xatırladaq ki, qondarma "DQR"in saxta "qəhrəmanı" Balasanyan Ermənistan rəhbərliyinə xitabən, onların öz hədlərini aşacaqları təqdirdə məhv ediləcəklərini bəyan edib.

### "Jamanak": "Araik Arutunyanın qarşısını almağa çalışırlar"

"Artsax"da "prezident" Bako Saakyanın simasında (dırnaqlar bizimdir-R.N.) fəaliyyət göstərən "siyasi elita" yeni koalisiya yaratmaq məqsədindədir. Bu barədə Ermənistanın "Jamanak" nəşri yazır.

Qəzet qeyd edir ki, bu koalisiya 2020-ci ilin "parlament seçkilərində" prezidentliyə bir "prezident" və bir "deputatlığa namizədlər siyahısı" təqdim edəcək.

"Koalisiyaya "parlamentin spikeri", "Artsax Demokratik Partiyası"ndan Aşot Qulyan, "Daşnaksyutun erməni inqilab federasiyası", rəhbərləri Bako Saakyan və David Babayan olan "Artsax Konservativlər partiyası" və "hakimiyyət" dəstəyi ilə yaradılmış daha bir neçə "partiya" daxil ola bilər" deyə adıçəkilən qəzet yazır.

Eyni zamanda, bildirilir ki, bu koalisiyada "prezidentliyə" yeganə "namizəd" kimi "xarici işlər naziri" Masis Mailyanın adı hallanır. "Onun namizədliyini keçmiş və hazırkı güclər dəstəkləyir, o cümlədən, Vitali Balasanyan da" deyə "Jamanak" qeyd edir və onu da yazır ki, burada məqsəd "artsaxlıların", eləcə də, Ermənistan hakimiyyətinin dəstəklədiyi Araik Arutunyanın qələbəsinin qarşısını almaqdan ibarətdir.

Bundan əlavə, qeyd olunur ki, həmin güclər Arutunyanın öz xoşu ilə namizədliyindən imtina etməsinə, eləcə də, Masis Milyana dəstək göstərməsinə çalışırlar.

### Koçaryanın vəkili: "Canlı efirdə sizin rəhbərliyinizin ən əsas adamına həmin təhqirləri işlədəcəm"

Yerevan məhkəməsində ölkənin ikinci prezidenti Robert Koçaryanın əleyhdarları onun vəkili Hayk Alumyanın ünvanına təhqirlər yağdırıblar. Lakin buna baxmayaraq, məhkəmə icraçıları baş verənləri, sadəcə, müşahidə edərək, heç bir tədbir görməyiblər. Bu barədə aysor.am yazır.

Koçaryanın vəkili isə jurnalistlərlə söhbətində hiddətini gizlədə bilməyib və məhkəmə icraçılarına xitabən deyib: "Siz nəyə görə buraya yığışmısınız? Ağıllara gələn söyüşləri eşitmək üçün? Ya ölçülər götürməlisiniz ki, burada bənzər hallar yaşanmasın, ya da burada dayanaraq, bütün bunları eşidəcəksinizsə, canlı efirdə sizin rəhbərliyinizin ən əsas adamına həmin təhqirləri işlədəcəm".

***Rövşən NURƏDDİNOĞLU***

# "Milli Şura" məkrli planlar hazırlayır

*İcazəsiz aksiyalar vasitəsi ilə qarşıdurmalar yaradıla bilər*

**Müxalifət növbəti dəfə icazəsiz aksiyalar keçirəcəyi hədəsi ilə çıxış edir və bununla bağlı hay-küy də qaldırıb, sosial şəbəkələrdə çağırışlar da edir. Son vaxtlar, ümumiyyətlə, "Milli Şura"nın AXCP-nin qanunlara zidd fəaliyyətə daha çox üstünlük verdiyi müşahidə olunur. Söhbət etdiyimiz müsahiblərimiz bunun səbəbini müxaliflər qarşısında xarici məkrli dairələrin konkret iş görmək tələbinin qoyulması ilə əlaqələndirdilər.**

### "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov: "Müxalifət məkrlə xaricdən pul-para toplayır"



- Qaragüruh müxalifət bütün fəaliyyətini qaragüruh üzərində də qurur. Bunların fəaliyyətində qanundan da, milli dəyərlərdən də, dövlətçilik mənafelərindən də hamısından öncə maliyyə, pul və xaricdən olan sifarişlər durur. Bir sözlə, müxalifət üçün pul olanda, ümumiyyətlə, qanunlar da, bütün dəyərlər də yaddan çıxır. Çünki müxalifət üçün pul hər şey deməkdir. Müxalifət də xaricdən onlara gələn bu maliyyəni əldən verməmək üçün ölkə qanunlarını da yaddan çıxarır, milli və dövlətçilik dəyərlərini də tapdalayır. Ona görə də, adları çəkilən şəxslərdən qanunlara əməl olunmasını gözləmək, sadəcə olaraq, sadəlövhlük olardı. Ümumiyyətlə, müxalifətin heç vaxt ölkəmiz ilə bağlı olan məkrli planı heç vaxt baş tutmayacaqdır.

### Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov:



### "Müxalifət uğursuzluqdan çıxa bilməyəcək"

- Son zamanlar müşahidə edirik ki, müxalifətin radikal qanadı olan AXCP və "Milli Şura" adlanan qurumda təmsil olunanlar, daha çox ölkədə qeyri-stabil vəziyyət yaratmaq yönündə addımlar atmağa çalışırlar. Bunu da Azərbaycanda stabilliyin pozulmasına yönəlmiş addım saymaq olar. Bütün bunların arxasında nə durur? Təbii ki, Azərbaycana qarşı xaricdə olan antimilli qüvvələr durur. Son zamanlar adları çəkilən qüvvələrin qanunsuz aksiyaların keçirilməsinə cəhd etmələri təsadüfi sayıla bilməz. Ümumiyyətlə, bunların nə etmələrindən asılı olmayaraq, adları çəkilən bu qüvvələr heç vaxtı öz istəklərinə çatmayacaqdır. Çünki xalq bunları dəstəkləmir və bundan sonra da dəstəkləməyəcəkdir. Müxalifət düşərgəsini təmsil edən şəxslərin özləri də, çox yaxşı görürlər ki, xalq bunlardan üz döndərib. Heç kəsə sirr deyil ki, adları çəkilən qüvvələr xaricdən maliyyələşir. Xarici qüvvələrin bu maliyyənin qarşılığında, onlardan tələbi ölkədə nə isə bir xoşagəlməz vəziyyət yaratmaqdır. Ona görə də, müxalifət düşərgəsini təmsil edən bu şəxslər ölkədə icazəsiz aksiyalar keçirmək və hay-küy qoparmaqla, şou yaratmağa çalışırlar. Bir sözlə, adları çəkilən qüvvələrin atdıqları bütün addımlar, yəni istər icazəli, istərsə də icazəsiz aksiyalar uğursuzluğa düçar olub və bundan sonra da olacaq.

### ADİİM-nin sədri "Avrasiya"



### İA-nın baş redaktoru Cavid Şahverdiyev: "Əli Kərimli qadını qabağa verib, özü gizlənir"

- Radikal müxalifətin öz qanunları var - qarşıdurma yaratmaq, insanları dövlətə qarşı qaldırmaq, çevrilişə səsləmək, gənclər və qadınlarla polis qarşıdurması yaratmaq... Bu tələblər Avropada ermənipərəst donor təşkilatları tərəfindən hazırlanaraq, təsdiq olunub. Azərbaycanın radikal müxalifət liderləri isə, onu ölkədə tətbiq etməyə cəhdlərdə olurlar. İnkişaf etmiş ölkələrdə, cəmiyyətlərdə bir çox qanun zamanın, reallığın tələblərinə uyğun olaraq dəyişilir və sənədlərə əlavələr edilir. Amma Əli Kərimli, "Milli Şura" adlanan qurumun qanunları heç vaxt dəyişilmir - köhnə hamam, köhnə tas. Çünki bu "liderlərin" təfəkkürlərində belə 26 ildir ki, dəyişiklik olmayıb, buna görə də, beyinləri paslanıb, işləmir. Qanun icazəsiz mitinq, aksiya keçirməyə izn vermirsə və Meriyaya etdiyin müraciətə mənfi cavab verilibsə, o zaman qanunsuz aksiya keçirməkdə, gəncləri, qadınları polis dəyənəyi qabağına verməkdə məqsəd nədir? Əli Kərimliyə icazəsiz aksiyada hansısa sosial problemin səsləndirilməsindən daha çox, kiminsə qanının tökülməsi lazımdır. Budur, onun qarşısına qoyulan tələb. Anti-Azərbaycan qüvvələr də bunu əlində bayraq tutub, dünyaya bəyan etsin ki, Azərbaycanda insan haqları, söz və mətbuat azadlığı pozulur, vətəndaşlara divan tutulur və s. Ona görə, bizim radikallar icazəsiz mitinqlər və aksiyalar keçirməkdə maraqlıdırlar. İnsan haqlarının qorunmasından, demokratiyadan danışan Əli Kərimli kimi insanlar heç vaxt qanunun aliliyinə hörmətlə yanaşmırlar. Dünyanın istənilən ölkəsində, "demokratiya"nın beşiyi sayılan Avropada belə qanunsuz aksiyalar dağıdılır. Təbii ki, Azərbaycanda da belə olub, bundan sonra da belə olacaq. Bunu Əli Kərimli də yaxşı dərk edir. Amma hamını düşündürən bir sual odur ki, nədən Kərimli və yaxud "Milli Şura" adlanan qurumun liderləri icazəsiz aksiyalarda görünmürlər. Əli Kərimli qadını qabağa verib, özü gizlənirsə, bu halda, dövlətin və millətin taleyini onlara necə etibar etmək olar?

**GÜLYANƏ**

## Kataloniyanın sabiq lideri Belçika hakimiyyətinə təslim olub

Kataloniya Jeneralitetinin sabiq sədri Karles Puçdemon İspaniya Ali məhkəməsinin həbsinə üçüncü beynəlxalq order verməsindən sonra könüllü olaraq Brüsseldəki prokurorluq ofisinə gəlib. Catalan News informasiya agentliyi xəbər verir ki, Karles Puçdemon vəkillərin müşayiəti ilə aparıldığı məhkəməyə Avropa Parlamentinin deputatı kimi immunitetə sahib olmasını xatırladıb. Belçika məhkəməsi İspaniyaya ekstradisiya olunması barədə qərar çıxana qədər Puçdemonu həbs etməyəcək. Həmçinin ona məhkəmənin icazəsi ilə Belçikanı tərk etmək hüququ da verilib.

## Bakıda evdən külli miqdarda pul oğurlanıb

Bakıda evdən külli miqdarda pul oğurlanıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sentyabrın 5-də Suraxanı rayonu ərazisindəki evlərin birindən 13 min ABŞ dollarını oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini A.Nəsirov Rayon Polis İdarəsinin 31-ci polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Abşeron Rayon Polis İdarəsinin əməkdaşları isə oktyabrın 10-da Masazır qəsəbəsindəki evlərin birindən 5900 manat, 900 ABŞ dolları və 7000 manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən qəsəbə sakini M.Həsənovu yaxalayıblar. Hər iki faktla bağlı araşdırmalar davam etdirilir.



## Ermənisifət gəda...

**RƏFİQƏ**

Özlərinin dedikləri kimi, "müxalifətin üzqaraları içimizdə olan bir-iki nəfəri də üzüqara edib, indi də üz tutmuşuq sosial şəbəkələrə". Nə yaxşı ki, bunu deməyə "cürəti" çatanınız var. Ancaq ölkəmizin bir uğurunun və yaxud da keçirilən hər hansı beynəlxalq tədbirlərinin müsbət nəticəsini görəndə destruktivlər, radikallar, dağıdıcılar, anarxistlər, siyasi mühacirlər" və bütün bunların vahid ad altında siyasi f.....k edənlər dərhal ağız-ağıza verib, hürüşməyə başlayırlar. Mitinqlərdən bir şey çıxmadığını görüb, yürüşlərdən sosial şəbəkələrə keçiblər. Bir də, birinci dəfə deyil ki..?!

Hər dəfə dövlət rəhbərinin verdiyi müvafiq fərman və sərəncamlarının mürəkkəbi qurumamış, başda satqınlıq "simvolu" olan Ə.Kərimli olmaqla, onun həndəvərində quyruq bulayıb-qısanlar, dərhal hərəkətə keçir, istər sosial şəbəkələrdə, istər aksiyalarda "millət", "dövlət" bağırmaları ilə, məhz "xalqın, dövlətin rifahı üçün atılmış addımlardan" açıq-aşkar, hətta ermənilərdən də betər şəkildə qıcıqlanırlar. Və bu qıcıqlanma ilə düşmənçilik mövqelərini nümayiş etdirirlər. Bu da, təəccüblü deyil. Şikəst təfəkkür, saxta əməl, baxan göz kor, eşidən qulaq kar. Çünki bir millətin səmərə görməsi üçün atılan addıma yalnız düşmən ağız əyər, Ə.Kərimli və onun siyasi "törəmələri" olan "siyasi mühacir"ləri əydilər ağızlarını, hələ bir az da o tərəfə keçərək, dövlətin bu addımını özlərinin "qələbəsi" kimi təqdim etmək qədər arsızlıqla, həyasızlıqla, idbarlıqla və mitinq çağırışları ilə çağırışlar etdilər. Nə deyəsən, belə şərəfsiz və əxlaqsızlara? Bu xalqın, bu dövlətin haqqını yediyinizə görə, LƏNƏT OLSUN SİZİN İYLƏNMİŞ, ERMƏNİ ÜFUNƏTLİ CƏMDƏYİNİZƏ! "Balıq başından iylənər" el məsəlini xatırlayaraq, qəti şəkildə deyə bilərik ki, belə şərəfsizlik edənlərin baş siyasi fahişəsi də, məhz elə Ə.Kərimlidir! Bu, o Ə.Kərimlidir ki, ölkəmizin son 16 illik uğurlu işlərinə, bu işlərdə DÖVLƏT-XALQ BİRLİYİNDƏN qaşınmaya düşən Ə.Kərimli yenə də yürüş edib çox sevdiyi klaviaturasına və daxilindəki tükənməz ermənixislətliyini sosial şəbəkə vasitəsi ilə söndürməyə çalışıb. Sən demə, dövlət xalqından "qorxurmuş" və bu da, "faydalı" bir zadıymış-filan... Yəni demək istəyib ki, guya hakimiyyət hər dəfə bunların haray-şivənindən "qorxaraq", sözügedən addımları atır (?!). Bax, budur ermənisifəti gəda? Bu gəda hələ də qanmır ki, hakimiyyət xalqdan "qorxmur", əksinə, xalqına xidmət edir, xalqının dərdinə-sərinə yanır, xalqı üçün bütün imkanlardan istifadə edir və ona görə edir ki, XALQ HAKİMİYYƏTİN MƏNBƏYİDİR! Bir də, dərk etməyə nə əqli, nə də əxlaqı imkan vermir. İllər boyu rusun, farsın, ermənimin, ingilisin, amerikalının, norveçlinin maşası, quyruqbulayanı ola, belə əxlaqsız və mənəviyyatını, bütünlüklə, qrantlara satan ermənisifət gədadan başqa nəyi gözləmək olar?! Pul müqabilində mitinqə qatılan 2800-3000 nəfər qaragüruhçunu, şəkil çəkdirib, ondan arayış alaraq, Avropaya "siyasi mühacir" statusunda getmək istəyən tör-töküntüləri xalqla səhv salan Ə.Kərimli kimi nəslinəcəbətini ermənilәşdirən gədadan, nacinsdən nə gözləmək olar? Əslində, təəccüblənəcək heç nə yoxdur. Hakimiyyətin uğurlarını "müxalifətin qələbəsi" kimi zorla xalqa sırımaq yalnız "moşennik" Ə.Kərimli kimi gədadan çıxar. Bu gədanın Avropaya "ixrac" etdiyi satqınları, elə sanırlar ki, mitinqlər, piketlər keçirməklə, "hakimiyyət xalqla hesablaşacaq". Doğrudan da, bədbəxtsiniz!

Bu yerdə jurnalist Eynulla Fətullayevin Ə.Kərimlini "quduz oğru itləri"nə bənzətməsi lap yerinqdə deyilmiş ifadədir. E.Fətullayev özünün "facebook" hesabında AXCP sədri və onun tərəfdarlarına həsr etdiyi statusda maraqlı iddia ilə çıxış edərək, bildirib ki, Əli Kərimli və digər murdar cəbhənin virusları oğru itlərdir: "Bu siyasi cinah öz murdar mahiyyətini ortaya qoyur. Məncə, günahkar Ayaz Mütəllibovdur. 1992-ci ildə bu nadan siyasi kütləni quduz itlər kimi güllələsəydi, Azərbaycan siyasətindən belə üfunət gəlməzdi... Üfunət iyi verənlər "siyasi mühacir" adı ilə Avropanın zibilliklərində eşələnirlər. ABŞ-da yaşayan xəyanətkar S.Osmanqızı üfunət iyi verən əsl satqınçılıq, xəyanətkarlıq, riyakarlıq və nəhayət, həyasızlıq ünsürləridür".

# Vətəndaş, sosial inteqrasiya və insan hüquqları

***Müasir Azərbaycanda dövlətin və cəmiyyətin demokratik şəraitdə idarə olunması əhalinin bütün qrupları üçün maraqlarının təmin olunmasına zəmin yaratmışdır. Sadəcə olaraq, bu maraqları dərk etmək, fəaliyyət üçün motivasiya və gərəkli iştirak üsulu tapmaq qalır. Azərbaycan əhalisinin bir hissəsi üçün vətəndaş iştirakı və siyasi inteqrasiya onların maddi vəziyyətləri və bununla bağlı, sosial təhlükəsizlik hissi yüksəldiyi təqdirdə, mümkün olacaq. Lakin yalnız xalq təsərrüfatının çiçəklənməsi ilə yanaşı, Azərbaycan əhalisinin dövlətlə yaxınlaşdırılması üçün digər tədbirlər də görülməlidir.***

Vətəndaş inteqrasiyası prosesi hər iki tərəfin - həm çoxluğun, həm də azlığın iştirakı ilə getməlidir. Cəmiyyət etiraf etməlidir ki, milli azlıqlar da titullu millət kimi dövlətin idarə olunmasında və xarici siyasətin həyata keçirilməsində bərabər hüquqa malik olmalıdır. Eyni zamanda, azlıqlar da dərk etməlidirlər ki, onlar da titullu millət kimi, yaşadıqları ölkənin taleyinə cavabdehdirlər. Onlar ölkələrinin uğurlarını və uğursuzluqlarını özlərinə yaxın qəbul etməlidirlər.

Ölkəmizdə demokratiya inkişaf etdirildikcə və iqtisadi yüksəliş getdikcə, Azərbaycan sakinlərinin ictimai fəaliyyətə daha aktiv surətdə qoşulacaqlarını proqnozlaşdırmaq olar. Müxtəlif hərəkat və cəmiyyətlərin dövlət quruculuğu prosesində iştirakı da vətəndaş iştirakının tərkib hissəsi sayıla bilər. Qeyri-hökumət təşkilatları, artıq sübut ediblər ki, onlar həm mərkəzi səviyyədə, həm də özünüidarəetmə səviyyəsində dövlət institutları ilə sıx əməkdaşlıq edə bilərlər.

Respublikamız müstəqillik qazandıqdan sonra, qeyri-hökumət təşkilatlarının vətəndaş cəmiyyəti quruculuğu prosesindəki müstəsna rolu nəzərə alınaraq, onların dövlətlə sıx əməkdaşlığının təmin olunmasına xidmət edən ardıcıl tədbirlər həyata keçirilir.

Hazırkı şəraitdə dövlət strukturları ilə QHT sektorunun bərabərhüquqlu tərəfdaşlıq prinsipləri əsasında sıx əməkdaşlığı vətəndaş cəmiyyətinin inkişafı demokratiyanın dərinləşməsi, milli qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması və milli maraqların qorunması baxımından mühüm əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin, bir müddət əvvəl təsdiq etdiyi "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Konsepsiyası"nın əsas məqsədi də, məhz dövlət orqanları ilə qeyri-hökumət təşkilatları arasında tərəfdaşlıq münasibətlərinin sabit və səmərəli sisteminin yaradılması, qeyri-hökumət təşkilatlarının dövlət və cəmiyyətin inkişafı üçün əhəmiyyət daşıyan problemlərin həllinə cəlb olunması və vətəndaş cəmiyyətinin inkişafının sürətlənməsidir.

Sərəncamda QHT-lərə Yardım Fondunun yaradılması və onlarla bağlı yeni qurumun formalaşdırılması məsələlərinin əksini tapması, son dərəcə təqdirəlayiq hal olmaqla, dövlətin ictimai qurumlarının fəaliyyətində nə qədər maraqlı olduğunu bir daha nümayiş etdirir. ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Azərbaycanda 2008-ci il prezident seçkiləri ilə bağlı yekun hesabatında bildirilir: "Milli azlıqlar bərabər vətəndaşlıq və seçki hüququna malikdir. Onların bəzilərinin nümayəndələri isə, indiki parlamentin üzvüdür".

1995-ci ildə dünyanın 116 dövləti ilə yanaşı, Azərbaycanın da imzaladığı BMT-nin "Sosial inkişaf haqqında" Kopenhagen Deklarasiyasında sosial inkişafın və insanların rifah halının yüksəldilməsinin əhəmiyyəti qeyd olunur və onun ən prioritet vəzifə olduğu qeyd edilir.

Azərbaycanın bütün sakinləri üçün bərabər əmək imkanlarının, gəlirlərin, sosial və mədəni həyatın təmin edilməsi dövlətin və onun bütün vətəndaşlarının maraqlarına cavab verir. Belə bir cəmiyyət insanların hüquq və azadlıqlarına, mədəni və dini müxtəlifliklərinə hörmətə, sosial ədalətə riayət olunmasına söykənməlidir.

Sosial inteqrasiya - hamı üçün bərabər imkanların olduğu cəmiyyətin yaradılmasını, fərdlərin və vətəndaş qruplarının sosial iştirak imkanlarının artırılmasını, cəmiyyət üzvlərinin ictimai resurslara bərabər çıxış imkanlarının təmin edilməsini və cəmiyyətin orta təbəqəsinin yaradılmasını nəzərdə tutur.

İnkişaf və inteqrasiya etmiş cəmiyyət geniş üfüqi və şaquli sosial çevikliyə malik kifayət qədər böyük və sabit orta təbəqə ilə xarakterizə olunur. Sosial çeviklik ayrı-ayrı şəxslərin və qrupların sosial statusunun dəyişməsində meydana çıxır. 1990-cı illərin ortalarınadək hökm sürən tendensiya sosial statusun aşağı düşməsi idi.

Əhalinin əksəriyyətinin sosial iyerarxiyada aşağı yuvarlandığı şəraitdə həm ayrı-ayrı şəxslər, həm də sosial qruplar üçün yeni sosial statusun eyniləşdirilməsinin çətinliyi xarakterikdir. Radikal surətdə həyat tərzini, peşəni dəyişdirmək, tələbatları azaltmaq və dəyərlərin prioritetliyini qiymətləndirmək lazım gəlir. Belə bir şəraitdə insanın öz gücünə və yaxınlarının gücünə və cəmiyyətin dəstəyinə inamı həlledici rol oynayır.

Dövlət tərəfindən əsas məqsədi ölkənin bütün sakinləri üçün sosial təhlükəsizliyin minimal səviyyəsini təmin etmək olan sosial təhlükəsizlik sisteminin prinsipləri təsdiq edilmişdir.

Sosial inkişaf və xalqın inkişafı heç də həmişə bərabər və iqtisadi yüksəlişə praporsional surətdə getmir. Bir sıra keçid ölkələrində, o cümlədən də, Azərbaycanda sosial və iqtisadi inkişafın disproporsiyası müşahidə olunur. Buna görə də, artımın strukturuna və keyfiyyətinə diqqəti yönəldirlər ki, xalqın inkişafına, sosial inteqrasiyaya yardım göstərilsin, yoxsulluq azaldılsın, ətraf mühiti mühafizə və cəmiyyətin uzunmüddətli inkişafını təmin etsinlər.

İqtisadi artım nailiyyətlərinin qeyri-bərabər bölünməsi dövlətin harmonik inkişafına təhlükə doğurur.

Sosial inteqrasiyanı aşağıdakı əsas amillər məhdudlaşdırır:

X Yoxsulluq.

X İşsizlik.

X Savadsızlıq və informasiyasızlıq.

X Zəif sosial mütəşəkkillik.

X Sosial təminat sisteminin mükəmməl olmaması.

Bununla əlaqədar olaraq, sosial inkişafın aşağıdakı başlıca problemlərini qeyd etmək lazımdır:

X Gəlirlərin qeyri-bərabərliyi və yoxsulluğun genişlənməsi ilə əlaqədar sosial qütbləşmənin güclənməsi;

X Qeyri-təbii və zorakı ölümlərin fövqəladə dərəcədə geniş yayılması;

X İnsanların, ailələrin və sosial qrupların marginallaşdırılması;

X Zorakılığın, o cümlədən də, kütləvi informasiya vasitələrində zorakılığın yayılması;

X Dilənçilərin, evsizlərin və küçə uşaqlarının sayının artması;

X Davamlı neqativ stressdən "çıxış yolu" kimi alkoqolizmin yayılması, narkotiklərdən və digər asılılıq yaradan maddələrdən istifadənin artımı.

Cəmiyyətin bir sıra sosial-demoqrafik qrupları üçün sosial səfalət riskinin yüksəkliyi xarakterikdir. Sosial inteqrasiyada onlara böyük diqqət yetirilməlidir. Belə qruplara aşağıdakılar aiddir: yetimlər; riskli ailələr, o cümlədən, çoxuşaqlı ailələr; işsizlər; evsiz insanlar; yoxsulluq içərisində yaşayan insanlar; məhkumluqdan azad olunanlar; ruhi inkişafında problemi olanlar.

Vətəndaş iştirakı və siyasi inteqrasiyanın məqsədləri aşağıdakılardan ibarətdir:

Siyasi inteqrasiyanı möhkəmləndirmək və Azərbaycan vətəndaşlarının hakimiyyətin bütün səviyyələrində parlament demokratiyasında iştirakı; fərdlər, cəmiyyət və dövlətin arasında dialoq vasitəsilə Azərbaycan vətəndaşlarının dövlət təsisatlarından və özünüidarəetmədən uzaqlaşmalarını aradan qaldırmaq; vətəndaşlığın əldə olunması prosesinə xeyirxah münasibət yaratmaqla, Azərbaycan vətəndaşının nüfuzunun yüksəldilməsi.

Ölkənin ictimai-siyasi hərəkatında fəal vətəndaş iştirakı inteqrasiya prosesinin dönməzliyini təmin edir və onu xalqın əksəriyyətinin marağına uyğunlaşdırır. Müstəqillik illərində Azərbaycanda vətəndaşların dövlət və ictimai həyatda iştirak imkanları xeyli genişlənmişdir.

***VAHİD ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 19 oktyabr




## 5 min Şəmkir gənci bir arada - "müstəqilliyimiz əbədidir" möhtəşəm bayram tədbiri



Dünən Şəmkirdə 18 Oktyabr Müstəqillik Gününə həsr olunmuş tədbirlər planına əsasən, möhtəşəm bayram tədbiri keçirilib. Şəmkir rayon icra hakimiyyətinin başçısı Alimpaşa Məmmədov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə və təşkilat rəhbərlərinin də iştirakı ilə şəhərin müxtəlif istiqamətlərindən gələn 5 minə yaxın gənc Ulu Öndər Heydər Əliyevin abidəsi önündə toplanaraq, Bayraq Meydanına yürüş edib.

Yürüş iştirakçıları "Müstəqilliyimiz əbədidir, dönməzdir", "Yaşasın müstəqil Azərbaycan" və "Qarabağ Azərbaycandır və nida işarəsi" şüarları ilə 3 km məsafəni qət edərək Dövlət Bayrağı Meydanına gələrək, "Müstəqilliyimiz əbədidir" flaşmobu göstəriblər.

Tədbir musiqili və əyləncəli proqramla davam etdirilib.

*Rəfiqə HÜSEYNOVA*

## Təbrik edirik!



Balaca Aminanı 2 yaşının tamam olması münasibəti ilə babaları Hüseynağa, Ramiz, nənələri Gülşən, Məlahət, atası Hüseyn, anası Lamiyə, əmisi Rüfət, dayısı Rüstəm ürəkdən təbrik edir, ona uzun ömür, xoşbəxt və səadət dolu günlər arzu edirlər.

**Səni təbrik edir ellər-obalar,**
**Əmilər-dayılar, nənə-babalar.**
**Yığışıb məclisdə hamı yaşına,**
**Dövrəndə solmayan gül-çiçək olsun.**
**Fır-fır fırlanırlar daim başına,**
**Amina, ad günün mübarək olsun.**



### ELAN

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Korreksiyaedici təlim ixtisası üzrə I kurs tələbəsi Məmmədli Sərvinaz Ələysat qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

## Azərbaycanın müstəqilliyi əbədidir və dönməzdir





***Azərbaycanın Dövlət Müstəqilliyi Günü münasibətilə Pirallahı rayonunda təhsil və mədəniyyət ocaqlarında silsilə tədbirlər keçirilir. Həmin tədbirlər çərçivəsində oktyabrın 18-də Pirallahı rayon icra hakimiyyətinin təşkilatçılığı ilə 168 nömrəli tam orta məktəbdə tədbir təşkil olundu.***

Dövlət Himninin sədaları ilə açıq elan edilən tədbirdə Pirallahı RİH başçısı aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Azad Namazov dövlət müstəqilliyimizin bərpası ilə əlaqədar geniş nitq söylədi. Qeyd edildi ki, dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, Azərbaycan özünün əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin qayıdışından sonra əldə etdi. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev özü ilə bərabər Azərbaycana siyasi müdriklik gətirdi.

A.Namazov çıxışında onu da bildirdi ki, Azərbaycan dünya birliyində, dünya dövlətləri içərisində, bütün beynəlxalq təşkilatlarda özünə yer tutub və Azərbaycan hər yerdə böyük gələcəyi olan nüfuzlu bir ölkə, Azərbaycan kimi tanınır: "1995-ci il noyabrın 12-də müəllifi Ümummilli Liderimiz Heydər Əliyev olan müstəqil Azərbaycanın Konstitusiyasının qəbulu ilə ölkəmizdə yeni dövlət quruculuğunun və onun fəaliyyətinin hüquqi əsası yaradıldı. Diqqətə çatdırıldı ki, bu gün Ümummilli Lider Heydər Əliyevin siyasəti onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə Prezidenti İlham Əliyev düşünülmüş və uzaqgörən fəaliyyəti ilə Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirdi, onu sarsılmaz, dönməz etdi. Cənab Prezident bildirmişdir ki: "Azərbaycan tam müstəqil siyasət yeridir. Bunun əsasında iqtisadi müstəqillik və hakimiyyətlə xalqın birliyi durur".

Daha sonra çıxış edən natiqlər xalqımızın azadlıq və müstəqillik yolunda keşməkeşli mübarizələr və qurbanlarla dolu tarixi bir yol keçdiyini qeyd etdilər. XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyətinin də, məhz müstəqil Azərbaycan dövlətinin yaradılması olduğunu bildirildi.

Tədbir konsert proqramı və məktəblilər tərəfindən hazırlanmış maraqlı səhnəciklərlə davam etdirildi.

*RÖVŞƏN*

## Nəsimi rayonunda dövlət müstəqilliyi günü qeyd olunub



Dünən Nəsimi rayonunda 18 Oktyabr Dövlət Müstəqilliyi Gününə həsr edilmiş tədbir keçirilib. Həmin tədbirlər çərçivəsində Nəsimi rayonu 1 saylı tam orta məktəbdə dövlət müstəqilliyi gününə həsr olunmuş bayram tədbiri keçirilib. Məktəbin foyesində şagirdlərin əl işlərindən ibarət rəngarəng sərgi təşkil olunub.

Tədbirdə Nəsimi rayon icra hakimiyyəti başçısının birinci müavini Gülarə Verdiyeva çıxış edərək bildirib ki, XX yüzilliyin sonlarında SSRİ-nin süquta uğraması ilə yaranan əlverişli tarixi şərait nəticəsində, Azərbaycan xalqı XX əsrdə ikinci dəfə müstəqillik bayrağını qaldırdı: "Müstəqilliyin ilk illərində ölkəmiz xeyli çətinliklərlə üzləşdi. 1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev ölkəmizin müstəqilliyini əbədi və dönməz etdi. Ümummilli Liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qutardı. Ulu Öndər ölkədə xaos və anarxiyanın, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və mənəvi psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu və bu gün bu yolun davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir".

Görüşdə Nəsimi rayon Ağsaqqallar Şurasının sədri Aydın Heydərov müstəqilliyimizin tarixi əhəmiyyətindən danışdı.

Sonda tədbir iştirakçıları 1 saylı tam orta məktəbin şagirdləri tərəfindən vətənpərvərlik mövzusunda ifa olunan şeir və mahnıları dinləyib, rəqslərə tamaşa edərək, video-çarxları izlədilər.

*RƏFİQƏ HÜSEYNOVA*

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**